AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

1 NOYABR 2018-ci il CÜMƏ AXŞAMI № 244 (6277) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

*Əli HƏSƏNOV:*

# Prezident İlham Əliyev şair Mikayıl Müşfiqlə bağlı məsələni şəxsi nəzarətinə götürüb



**Azərbaycan poeziyasının inkişafında böyük rol oynamış, Stalin repressiyasının qurbanı olmuş və 1938-ci ildə güllələnmiş şair Mikayıl Müşfiqin qalıqlarının tapılması ilə bağlı son zamanlar kütləvi informasiya vasitələrində yayılan materiallar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin diqqətini cəlb edib.**

Cənab Prezident məsələnin araşdırılması üçün Milli Elmlər Akademiyası, Səhiyyə, Mədəniyyət nazirlikləri və digər əlaqədar qurumların nümayəndələrindən ibarət işçi qrupun yaradılması barədə göstəriş verib. Tapşırığa əsasən, Mikayıl Müşfiqə məxsus olduğu ehtimal edilən qalıqlar müvafiq qaydada DNK ekspertizasından keçiriləcəkdir. Əgər qalıqların həqiqətən ona məxsus olduğu təsdiqini taparsa, şairin yenidən dəfn olunması ilə bağlı bütün zəruri tədbirlər görüləcəkdir.

Bu haqda AZƏRTAC-a Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov məlumat verib.

Əli Həsənov onu da qeyd edib ki, cənab Prezident həmişə Azərbaycan mədəniyyətinə, mədəniyyət və incəsənət xadimlərinə, xüsusilə repressiya qurbanı olmuş ziyalılarımızın xatirəsinə böyük diqqətlə yanaşıb. Bunun bariz nümunəsi kimi, dövlətimizin başçısının 2017-ci ilin fevralında Bakının Yasamal rayonu ərazisində keçmiş Statistika dairəsi adlanan yerdə Mikayıl Müşfiqin heykəlinin demontajına münasibətini göstərmək olar. O vaxt cənab Prezident məsələnin araşdırılması, günahkarların cəzalandırılması, heykəlin dərhal öz yerində bərpa olunması ilə bağlı tapşırıq vermiş, həmin göstərişin qısa zamanda icra olunmasından sonra da heykəli ziyarət etmiş və önünə gül dəstəsi qoymuşdur.

Əli Həsənov bildirib ki, Mikayıl Müşfiqin qalıqlarının aşkar olunması barədə yayılan məlumatlar hazırda dövlətimizin başçısının nəzarətindədir. Əminliklə demək olar ki, məsələnin ciddi araşdırılması ilə bağlı qısa zamanda müvafiq tədbirlər görüləcək və nəticə barədə ictimaiyyətə məlumat veriləcəkdir.

**AZƏRTAC**

## Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti Zati-aliləri cənab Əbdüləziz Buteflikaya

Hörmətli cənab Prezident,

Ölkənizin milli bayramı - İnqilab Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan ilə Əlcəzair arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Əlcəzair xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 30 oktyabr 2018-ci il.**

## Gəncə Dövlət Universitetinin əməkdaşlarına fəxri adların verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda təhsilin inkişafındakı xidmətlərinə görə Gəncə Dövlət Universitetinin aşağıdakı əməkdaşlarına Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar müəllim"**

Aslanova Emma Əli qızı
Cavadov Asif Şəmil oğlu
Fətəliyeva Gülsüm İsa qızı
Kərimzadə Pərvin Orxan qızı
Quliyev Əliqulu Umud oğlu
Məmmədov Fəxrəddin Həsən oğlu
Yusibov Mübariz İmran oğlu

**"Əməkdar mühəndis"**

Həsənov Fəxrəddin Şərif oğlu.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 31 oktyabr 2018-ci il.**

## Gəncə Dövlət Universitetinin əməkdaşlarının "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda təhsilin inkişafındakı xidmətlərinə görə Gəncə Dövlət Universitetinin aşağıdakı əməkdaşları "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Alverdiyev İsfəndiyar Cavid oğlu
Əfəndiyev Üzeyir Qiyas oğlu
Əhmədova Sevda Zahid qızı
Həsənov Vasif İlkan oğlu
Xurşudov Şahin Nadir oğlu
Kərimov Heydər Nəsib oğlu
Kubışov İlqar Nadir oğlu
Qurbanov Qulu Baba oğlu
Məmmədov Mərdan Mürsəl oğlu
Məmmədova Vəfa Fərman qızı
Novruzov Vaqif Seyfəddin oğlu
Tağıyev Şahin Tağı oğlu
Vəliyev Murad Turab oğlu
Yusifov Elturan Cahad oğlu
Zeynalov Zakir Mikayıl oğlu.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 31 oktyabr 2018-ci il.**

## Şəki şəhərinin tarixi hissəsinin qorunması ilə bağlı əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycanın ən qədim şəhərlərindən və mədəniyyət mərkəzlərindən biri olan Şəkinin tarixi hissəsini əhatə edən "Yuxarı Baş" Dövlət Tarix-Memarlıq Qoruğu çoxəsrlik tarixə malik abidələr və unikal mədəniyyət nümunələri ilə zəngin bir ərazidir.

Son illərdə "Yuxarı Baş" Dövlət Tarix-Memarlıq Qoruğunun ərazisində həyata keçirilmiş tədbirlər nəticəsində "Aşağı Karvansaray" Kompleksi, "Şəkixanovların evi", M.F.Axundzadənin ev-muzeyi, qədim küçələrin bir hissəsi bərpa olunmuş, müəyyən abadlıq işləri görülmüşdür.

Şəki şəhəri 2008-ci ildə Dünya Tarixi Şəhərlər Liqasının üzvü seçilmiş, 2010-cu ildə Azərbaycanın Sənətkarlıq Paytaxtı elan edilmiş, 2017-ci ildə UNESCO-nun "Yaradıcı şəhərlər şəbəkəsi" siyahısına daxil olunmuşdur.

Şəkinin turistlər üçün cəlbedici məkana çevrilməsi əsrlərin sınağından çıxmış, təbii təsirlərə məruz qalmış tarix və mədəniyyət abidələrinin konservasiyası və bərpası, ənənəvi xalq sənətkarlığı növlərinin dirçəldilməsi, istirahət-turizm infrastrukturu obyektlərinin və xidmət sahələrinin yaradılması işlərinin sürətləndirilməsini şərtləndirir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi üç ay müddətində:

*1.1.* "Yuxarı Baş" Dövlət Tarix-Memarlıq Qoruğunun ərazisində yerləşən tarix və mədəniyyət abidələrinin siyahıya alınmasını və vahid məlumat bazasının yaradılmasını təmin etsin;

*1.2.* "Yuxarı Baş" Dövlət Tarix-Memarlıq Qoruğunun ərazisində yerləşən tarix və mədəniyyət abidələrinin uzunmüddətli qorunması, konservasiyası, bərpası və məqsədyönlü istifadəsi ilə bağlı konsepsiyanın layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 31 oktyabr 2018-ci il.**

## Beyləqan rayonunun Kəbirli-Eyvazalılar-Birinci Aşıqlı-Əlinəzərli avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** İyirmi iki min nəfər əhalinin yaşadığı 8 yaşayış məntəqəsini birləşdirən Kəbirli-Eyvazalılar-Birinci Aşıqlı-Əlinəzərli avtomobil yolunun tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 18,04 milyon (on səkkiz milyon qırx min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 31 oktyabr 2018-ci il.**

## Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 9 fevral tarixli 1227 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin Feldyeger Rabitəsi İdarəsi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Feldyeger rabitəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1215-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 9 fevral tarixli 1227 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, N 2, maddə 171) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin Feldyeger Rabitəsi İdarəsi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

**1.** 4.0.1-ci yarımbənd ləğv edilsin.

**2.** 5.9-cu bəndə "açıla" sözündən sonra ", yoxlanıla" sözü əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 30 oktyabr 2018-ci il.**

## "İnformasiya təhlükəsizliyi sahəsində fəaliyyətin təkmilləşdirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 26 sentyabr tarixli 708 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"İnformasiya təhlükəsizliyi sahəsində fəaliyyətin təkmilləşdirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 26 sentyabr tarixli 708 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, N 9, maddə 860, 2014, N 9, maddə 1027; 2017, N 8, maddə 1521, N 9, maddə 1643) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 2-ci hissədə "dövlət orqanları" sözlərindən sonra ", dövlətə məxsus olan hüquqi şəxslər, o cümlədən Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslər (bundan sonra - dövlət qurumları)" sözləri əlavə edilsin və "dövlət orqanlarının" sözləri "dövlət qurumlarının" sözləri ilə əvəz edilsin.

**2.** 3.2-ci bənddə ismin müvafiq hallarında "dövlət orqanları" sözləri "dövlət qurumları" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 31 oktyabr 2018-ci il.**

## Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası keçirilib

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası keçirilib.**

Konstitusiya Məhkəməsinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin V hissəsinə və "Konstitusiya Məhkəməsi haqqında" Qanunun 7.1-ci maddəsinə əsasən, "Access Bank" QSC-nin idarə heyətinin məhkəmə aktlarından verdikləri şikayətə baxılaraq, Plenumun icraatına qəbul olunması haqqında qərardad çıxarılıb.

Şikayətə mahiyyəti üzrə, Konstitusiya Məhkəməsi Plenumunun noyabrın 30-na təyin edilmiş iclasında baxılacaq.

**AZƏRTAC**

# Energetika Nazirliyi ilə Qazaxıstanın Milli İqtisadiyyat Nazirliyi gələn il ikitərəfli iqtisadi tədbirlər təşkil edəcək

**Azərbaycanın Energetika Nazirliyi ilə Qazaxıstanın Milli İqtisadiyyat Nazirliyi gələn il bir sıra ikitərəfli iqtisadi tədbirlər təşkil edəcək.**



AZƏRTAC xəbər verir ki, Azərbaycan-Qazaxıstan ticarət-iqtisadi əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyasının 15-ci iclası çərçivəsində Astanada səfərdə olan energetika naziri Pərviz Şahbazov Qazaxıstanın milli iqtisadiyyat naziri Timur Süleymanov ilə görüşüb.

Görüşdə ikitərəfli əməkdaşlıq məsələləri və 2018-2020-ci illəri əhatə edən Strateji Yol Xəritəsi üzrə ötən dövr ərzində görülən işlər müzakirə edilib. Qazaxıstanın infrastruktur layihələrində Azərbaycan şirkətlərinin iştirakı, energetika və kənd təsərrüfatı sahəsində işçi qrupları səviyyəsində baxılan məsələlərin reallaşdırılmasının vacibliyi qeyd olunub. Gələn il bir sıra ikitərəfli iqtisadi tədbirlərin həyata keçirilməsi barədə razılıq əldə olunub.

AZƏRTAC

# Azərbaycan-Qazaxıstan ticarət-iqtisadi əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyasının 15-ci iclası keçirilib

## *Cari ilin 9 ayında iki ölkə arasında ticarət dövriyyəsinin həcmi 65,6 faiz artaraq 169,8 milyon dollar olub*

**Oktyabrın 31-də Astanada Azərbaycan-Qazaxıstan ticarət-iqtisadi əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyasının 15-ci iclası keçirilib.**



AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında ticarət-iqtisadi əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyasının 15-ci iclasında iştirak etmək məqsədilə energetika naziri Pərviz Şahbazovun rəhbərlik etdiyi nümayəndə heyəti Astanada səfərdədir. İclasdan əvvəl Azərbaycan və Qazaxıstan energetika nazirləri Pərviz Şahbazov və Kanat Bozumbayev arasında ikitərəfli görüş keçirilib. Görüşdə iki ölkə arasında münasibətlərdə son 26 il ərzində əldə edilmiş nailiyyətlər, dövlət başçılarının səyləri nəticəsində bütün sahələr üzrə müşahidə olunan inkişaf dinamikasından bəhs edilib. Hökumətlərarası Komissiya çərçivəsində görülən işlərin Azərbaycan-Qazaxıstan münasibətlərinin inkişafına xidmət edəcəyi bildirilib.

Sonra energetika nazirləri Pərviz Şahbazov və Kanat Bozumbayevin həmsədrliyi ilə Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında ticarət-iqtisadi əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyasının 15-ci iclası keçirilib. Qazaxıstanın energetika naziri, komissiyanın həmsədri Kanat Bozumbayev Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə təbriklərini çatdırıb. Bu illər ərzində Azərbaycanın uzun bir inkişaf yolu keçərək beynəlxalq aləmdə böyük nüfuz sahibinə çevrildiyini söyləyib.

K.Bozumbayev iki ölkə münasibətlərinin hərtərəfli inkişafında Birgə Hökumətlərarası Komissiyanın rolundan danışaraq, bugünkü iclasın əməkdaşlığın daha da inkişafı üçün yeni imkanlar yaradacağını söyləyib.

İclasda çıxış edən energetika naziri, komissiyanın həmsədri Pərviz Şahbazov tarixən dil, din və mədəni köklərlə bağlı olan Azərbaycan ilə Qazaxıstan arasında əlaqələrin inkişafının bütün sahələri əhatə etdiyini və mühüm layihələrlə hər iki ölkənin enerji və nəqliyyat dəhlizinə çevrildiyini deyib.

Nazir ötən ilin aprel ayında Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin Azərbaycana səfəri zamanı ölkələrimiz arasında ticarət dövriyyəsinin artırılması, idxal-ixrac imkanlarından geniş istifadə ilə bağlı hər iki ölkənin dövlət rəhbərləri tərəfindən tapşırıqlar verildiyini xatırladıb.

"Bu tapşırıqlar əsasında hazırlanan və 2018-2020-ci illəri əhatə edən Strateji Yol Xəritəsi üzrə ötən dövr ərzində mühüm addımlar atılıb. Bugünkü iclas xəritədə nəzərdə tutulan təbirlərin icrasını nəzərdən keçirməklə bütün sahələrdə qarşılıqlı münasibətlərin genişləndirilməsinə, mövcud potensialdan yeni istiqamətlər üzrə əməkdaşlığa başlamağa töhfə verəcək", - deyə o bildirib.

İclasda Hökumətlərarası Komissiyanın 2017-ci il dekabrın 7-də Bakıda keçirilmiş 14-cü iclasının Protokolunda qeyd olunan müvafiq sahələr üzrə görülmüş işlər müzakirə edilib. Ticarət-iqtisadiyyat sahəsində əlaqələrin hazırkı vəziyyəti nəzərdən keçirilib.

Qeyd olunub ki, bu ilin 9 ayı ərzində iki ölkə arasında ticarət dövriyyəsinin həcmi 65,6 faiz artaraq 169,8 milyon ABŞ dolları olub. Azərbaycandan Qazaxıstana ixrac 65,1 faiz artaraq 36 milyon dollar, idxal isə 65,8 faiz yüksələrək 133,8 milyon dollar olub. Ticarət-iqtisadi, yanacaq-energetika, nəqliyyat, kənd təsərrüfatı, humanitar, mədəni və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlığı stimullaşdırmaq üçün əlavə tədbirlərin görülməsinin, sərgi, konfrans, biznes forumların keçirilməsinin vacibliyi vurğulanıb. İki ölkə arasında ticarət dövriyyəsinin artırılması üçün potensial ixrac məhsulları və şirkətlərin müəyyənləşdirilməsi, Qazaxıstanın infrastruktur layihələrinin həyata keçirilməsində Azərbaycan şirkətlərinin, eləcə də Sumqayıt Kimya Sənaye Parkında qazax şirkətlərinin iştirakının nəzərdən keçirilməsi razılaşdırılıb.

İki ölkə arasında əməkdaşlığın əsas istiqamətlərindən biri kimi enerji sektoruna da diqqət yetirilib. Strateji Yol Xəritəsinə və Hökumətlərarası Komissiyanın 14-cü iclasında əldə edilmiş razılığa uyğun olaraq "Qazaxıstanın neft və neft məhsullarının Azərbaycan üzərindən tranziti" və "Qazaxıstan mənşəli mayeləşdirilmiş təbii qazın (LNG) Xəzər dənizi vasitəsilə Azərbaycana çatdırılması və nəqli" üzrə işçi qruplarının yaradılması və Bakıda ilk iclasın keçirilməsi enerji sahəsində əməkdaşlığın genişləndirilməsinə xidmət edən tədbirlər kimi qiymətləndirilib. Qazaxıstan neftinin Bakı-Tbilisi-Ceyhan və Bakı-Novorossiysk boru kəmərləri ilə nəqli, eləcə də sıxılmış və mayeləşdirilmiş qazın Azərbaycan vasitəsilə ixracı imkanları və bu məhsulların dəmir yolu vasitəsilə daşınması kimi məsələlər müzakirə edilib. Bərpaolunan enerji və enerji səmərəliliyi sahələrində əməkdaşlıq perspektivlərini öyrənmək barədə razılıq əldə olunub.

İclasda, həmçinin nəqliyyat sahəsində əməkdaşlığa da geniş toxunulub. Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz nəqliyyat sahəsində əlaqələrin güclənməsinə təkan verdiyi qeyd olunub. Azərbaycan və Qazaxıstan ərazisindən keçən Transxəzər beynəlxalq nəqliyyat marşrutunun rəqabət qabiliyyətinin artırılması və bu marşruta beynəlxalq yükdaşımaların cəlb edilməsi üçün işlərin davam etdirilməsi qərara alınıb.

Bundan başqa, kənd təsərrüfatı, əmək və əhalinin sosial müdafiəsi, miqrasiya, səhiyyə, mədəniyyət, təhsil, ətraf mühitin mühafizəsi, gənclər və idman, dövlət qulluğu, əqli mülkiyyət, müqavilə-hüquqi bazanın inkişafı və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə edilib.

Sonda Azərbaycan-Qazaxıstan ticarət-iqtisadi əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyasının 15-ci iclasının yekunlarına dair Protokol imzalanıb. Sənədi hökumətlərarası komissiyanın həmsədrləri - Azərbaycanın energetika naziri Pərviz Şahbazov və Qazaxıstanın energetika naziri Kanat Bozumbayev imzalayıblar.

AZƏRTAC

# Ramin Quluzadə Beynəlxalq Telekommunikasiya İttifaqının səlahiyyətli konfransında çıxış edib

**Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ) səlahiyyətli konfransı öz işini davam etdirir.**




AZƏRTAC xəbər verir ki, konfransa hökumət başçıları, İKT sahəsi üzrə nazirlər, nazir müavinləri, akademik təsisatların, eləcə də özəl şirkətlərin nümayəndələrindən ibarət 2500-dən çox iştirakçı qatılıb.

Oktyabrın 29-da öz işinə başlayan konfrans noyabrın 16-dək davam edəcək.

Bu gün səlahiyyətli konfrans çərçivəsində keçirilən plenar iclasda Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə çıxış edib.

Nazir bildirib ki, Azərbaycan İKT sektorunun inkişafı, BTİ ilə əməkdaşlığın gücləndirilməsi, həmçinin Şuranın fəaliyyətində aktiv iştirak etmək üçün davamlı işlər görür.

Azərbaycanın İKT-nin İnkişafı üzrə "Əlaqəlik 2020" Fəaliyyət Proqramını fəal şəkildə dəstəklədiyini qeyd edən R.Quluzadə ölkəmizin bu istiqamətdə mühüm siyasi sənədlər qəbul etdiyini, strateji infrastruktur layihələri həyata keçirərək, beynəlxalq maraqlı tərəflərlə əməkdaşlığı genişləndirərək Fəaliyyət Proqramının məqsəd və hədəflərinə çatmaq üçün səylər göstərdiyini vurğulayıb.

O bildirib ki, 2020-ci ilə qədər Azərbaycanın İKT-nin inkişafı üzrə strateji baxışları "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyası"nda öz əksini tapıb.

"Bu baxımdan, biz ölkədə telekommunikasiya, İKT-nin geniş tətbiqi, internet istifadəçilərinin sayının artırılması, informasiya cəmiyyətinin inkişaf etdirilməsi və eyni zamanda, rəqəmli iqtisadiyyatın təmini üçün müasir texnologiyaları tətbiq edirik. Azərbaycan Beynəlxalq Telekommunikasiya İttifaqının Şurasına üzvlük dövründə ölkədə bütün İKT infrastrukturu daim inkişaf etdirilib. Bu gün Azərbaycan əhalisinin 80 faizdən çoxu internet istifadəçisidir, ev təsərrüfatlarının 64 faizində kompüter var. Ölkədə hər 100 nəfərə düşən mobil abunəçilərin sayı 106-ya çatır. Biz mobil genişzolaqlı şəbəkə də daxil olmaqla genişzolaqlı xidmət istifadəçilərinin sayını artırır, "4G" texnologiyalarının tətbiqini genişləndiririk. İKT infrastrukturuna qoyulan investisiyalar böyük nəticələr verməkdədir. Belə ki, 2016-cı ildə Cənubi Qafqaz regionunda ilk TİER III səviyyəli sertifikata malik Data Mərkəzini istifadəyə vermişik. Kiçik və orta biznesin, startap ekosisteminin imkanlarını artırmaq üçün Bakıda İnnovasiya Mərkəzinin yaradılması planlaşdırılır. Bu mərkəz gənc sahibkarlar üçün innovativ ideyaların təşviq edilməsi məkanına çevriləcək", - deyə nazir bildirib.

BTİ tərəfindən dəstəklənən "Trans-Avrasiya Super İnformasiya Magistralı (TASİM)" layihəsi üzrə həyata keçirilən işlərdən də danışan nazir qeyd edib ki, magistralın məqsədi Şərqlə Qərbi birləşdirəcək ən qısa transmilli fiber-optik xəttinin inşasıdır. R.Quluzadə bildirib ki, bu layihə "rəqəmli fərqliliyi" aradan qaldıracaq və dənizə çıxışı olmayan Avrasiya ölkələri üçün yeni iqtisadi imkanlar açacaq.

Səlahiyyətli konfransın dünyada informasiya və kommunikasiya texnologiyalarının inkişafında yeni tendensiyalar müəyyən edəcəyinə ümid etdiyini bildirən nazir Azərbaycanın öz növbəsində İttifaqın fəaliyyəti çərçivəsində fəal əməkdaşlığı davam etdirməyə hazır olduğunu vurğulayıb.

Plenar iclas gün ərzində öz işini müxtəlif mövzuların müzakirəsi üzrə davam etdirib.

Tədbirlərdə ölkəmizin BƏƏ-dəki səfiri Daşqın Şikarov və Dubaydakı baş konsulu Cavidan Hüseynov iştirak ediblər.

AZƏRTAC

# Bolqarıstan Prezidenti Rumen Radev Azərbaycanın xarici işlər naziri ilə görüşüb

**Bolqarıstana səfəri çərçivəsində Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov oktyabrın 31-də Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev ilə görüşüb.**



Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir Elmar Məmmədyarov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını Bolqarıstan Respublikasının Prezidenti Rumen Radevə çatdırıb.

Bolqarıstan Prezidenti Prezident İlham Əliyevin salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını dövlətimizin başçısına çatdırmağı xahiş edib.

Görüşdə iki ölkə arasında mövcud olan yüksək səviyyəli əməkdaşlıq münasibətlərindən məmnunluq ifadə olunub. Hər iki tərəfin əməkdaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsində maraqlı olduğu vurğulanıb. Xüsusilə energetika və nəqliyyat sahələrində əməkdaşlığın dərinləşdirilməsinə hər iki ölkə tərəfindən verilən önəm qeyd edilib.

Prezident Rumen Radev 2017-ci ilin oktyabrında Azərbaycana səfəri çərçivəsində Prezident İlham Əliyev ilə birgə bəyanatlarının davamı olaraq, Bakı-Sofiya birbaşa hava xəttinin açılmasını çox yüksək qiymətləndirib. Bu hava xəttinin açılmasının tərəflər arasında xüsusilə turizm sahəsində əlaqələrin inkişafı baxımından mühüm rol oynadığı vurğulanıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bolqarıstan Respublikasına rəsmi səfəri zamanı 2015-ci il 4 mart tarixində imzalanmış "Azərbaycan Respublikası ilə Bolqarıstan Respublikası arasında Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə"nin ölkələrimiz arasında münasibətlərin hərtərəfli inkişaf etdirilməsi baxımından əlverişli siyasi zəmin yaratdığı ifadə olunub.

AZƏRTAC

# Azərbaycan-Bolqarıstan əlaqələrinin inkişafından məmnunluq ifadə olunub

**Bolqarıstana rəsmi səfəri çərçivəsində Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarovun başçılıq etdiyi nümayəndə heyəti Bolqarıstan Respublikası Milli Assambleyasının spikeri Tsveta Karayançeva ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə tərəflər iki dost ölkə arasındakı strateji tərəfdaşlığa əsaslanan münasibətlərin inkişaf səviyyəsindən məmnunluqlarını bildiriblər. Bu xüsusda, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bolqarıstan Respublikasına rəsmi səfəri zamanı 2015-ci il 4 mart tarixində Sofiyada imzalanmış "Azərbaycan Respublikası ilə Bolqarıstan Respublikası arasında strateji tərəfdaşlıq haqqında" Birgə Bəyannamənin əhəmiyyəti vurğulanıb.

Bolqarıstan Milli Assambleyasının spikeri Azərbaycan parlamentinin 100 illiyi münasibətilə keçirilən təntənəli mərasimdə iştirak etmək məqsədilə bu ilin sentyabrında Azərbaycana səfərini məmnunluqla xatırladıb.

Söhbət zamanı tərəflər iki ölkə arasında əməkdaşlıq əlaqələrinin daha da inkişafında parlamentlərarası dostluq qruplarının fəaliyyətini təqdir ediblər.

Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən mühüm nəqliyyat və enerji layihələri, eləcə də Bolqarıstan şirkətlərinin sözügedən layihələrə cəlb olunması ilə bağlı fikir mübadiləsi aparan tərəflər iqtisadi əməkdaşlığın daha da inkişafı baxımından sözügedən sahələrin böyük potensiala malik olduğunu bildiriblər və bu istiqamətdə fəaliyyətin davam etdirilməsinin vacibliyini vurğulayıblar.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

AZƏRTAC

# Mərkəzi Bank aparılan islahatların və iqtisadi sabitlik siyasətinin reallaşmasında fəal iştirak edəcək

Azərbaycandakı Amerika Ticarət Palatası (AmCham) Mərkəzi Bankla birlikdə biznes nümayəndələrinin iştirakı ilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 sentyabr tarixli Fərmanı ilə təsdiqlənən "2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı"nın müzakirəsinə həsr edilmiş tədbir keçirib.






Tədbirdə Mərkəzi Bankın sədri Elman Rüstəmov, Mərkəzi Bankın Ödəniş sistemləri və hesablaşmalar departamentinin direktoru Kəmalə Qurbanova, "Mastercard"ın İctimai Siyasət üzrə regional direktoru Süleyman Sözeri və Azərbaycan üzrə ölkə direktoru Erdem Çakar iştirak edib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Ödəniş sistemləri və hesablaşmalar departamentinin direktoru Kəmalə Qurbanova Dövlət Proqramının əhəmiyyəti, məqsədi və istiqamətləri barədə geniş çıxış edərək ölkənin milli ödəniş infrastrukturu, Mərkəzi Bankın ölkədə rəqəmsal ödənişlərin inkişafı istiqamətində gördüyü işlər, habelə nağdsız ödənişlərin inkişaf perspektivləri barədə iştirakçıları məlumatlandırıb.

"Mastercard"ın İctimai Siyasət üzrə regional direktoru Süleyman Sözeri və Azərbaycan üzrə ölkə direktoru Erdem Çakar şirkətin Azərbaycandakı fəaliyyəti və Dövlət Proqramının hazırlanması zamanı Mərkəzi Bankla birgə həyata keçirilən "Nağdsız Azərbaycan" layihəsi barədə ətraflı məlumat veriblər.

Tədbirin fəxri qonağı qismində Azərbaycan Mərkəzi Bankının sədri Elman Rüstəmov çıxışında qəbul edilmiş Dövlət Proqramının strateji əhəmiyyətindən, proqramda nəzərdə tutulan və rəqəmsallaşmanı genişləndirəcək infrastruktur layihələrindən, rəqəmsal ödənişlərin genişlənməsinin makroiqtisadi siyasətin effektivliyinin artmasına təsirlərindən, eləcə də proqramın hazırlanması zamanı sıx əməkdaşlıq edilən "Mastercard" təşkilatı ilə ikitərəfli qarşılıqlı münasibətlərdən danışıb.

E.Rüstəmov iştirakçılara ölkədə dayanıqlı iqtisadi artımın əsas şərti olan makroiqtisadi sabitlik üzrə mövcud vəziyyət və qarşıda duran vəzifələr haqqında ətraflı məlumat verib. O, mövcud mürəkkəb beynəlxalq fonda Prezident İlham Əliyevin rəhbərliyi ilə son illər aparılan davamlı iqtisadi stabilləşdirmə siyasəti nəticəsində Azərbaycanda makroiqtisadi sabitliyin möhkəm əsaslarının yaradıldığını bildirib. E.Rüstəmov makroiqtisadi sabitliyin möhkəmlənməsi meyillərinin pul siyasətinin normallaşdırılmasına şərait yaratdığını, Mərkəzi Bank tərəfindən pul-kredit şərtlərinin tarazlı yumşaldılması tədbirlərinin qiymət sabitliyi ilə iqtisadi artıma dəstək arasında balansın yaradılmasına xidmət etdiyini deyib. Həmçinin fiskal siyasətin də monetar siyasətlə birlikdə xarici şoklara dayanıqlığın təmin edilməsinə, daxili borc bazarının inkişafına zəruri dəstəyinin vacibliyini və cari ildə kredit aktivliyi tədricən bərpa olunsa da, bank sektorunda əlavə sağlamlaşdırılma tədbirlərinin həyata keçirilməsinin zəruriliyini qeyd edib.

E.Rüstəmov başlanmış pozitiv meyillərin qorunmasının, makroiqtisadi sabitliyin möhkəmləndirilməsi və iqtisadi artımın sürətləndirilməsinin ortamüddətli dövrün başlıca prioriteti olduğunu diqqətə çatdırıb. Qeyd edib ki, ortamüddətli dövrdə optimist proqnozların reallaşması üçün yaxşı harmonizasiya olunmuş siyasət tədbirləri, prioritet xarakterli iqtisadi islahatların reallaşdırılması tələb olunur. Mərkəzi Bank da ölkədə aparılan islahatların və yeridilən iqtisadi sabitlik siyasətinin reallaşmasında fəal iştirak edəcək.

Çıxışının sonunda E.Rüstəmov biznes üçün əlverişli mühit quruculuğunda Mərkəzi Bankın rolunun vacibliyini qeyd edərək biznes sektoru nümayəndələri ilə birbaşa ünsiyyət imkanının yaradılmasına, həmçinin tədbirə dəvətə görə Azərbaycandakı Amerika Ticarət Palatasına və "Mastercard"ın nümayəndələrinə təşəkkürünü bildirib.

AZƏRTAC

# Azərbaycan ilə Bolqarıstan arasında təhsil sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb

**Bolqarıstana rəsmi səfəri çərçivəsində Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Bolqarıstan Respublikasının təhsil və elm naziri Krasimir Vılçev ilə görüşüb.**

**AZƏRTAC xəbər verir ki, görüşdə tərəflər arasında "Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Bolqarıstan Respublikasının Təhsil və Elm Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" imzalanıb.**

AZƏRTAC

*1 noyabr Kənd Təsərrüfatı İşçiləri Günüdür*

# Aqrar sahənin uğurları Azərbaycanın dinamik inkişafının nəticəsidir



**İnam KƏRİMOV,**
**Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri**

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2008-ci il 9 oktyabr tarixli Sərəncamı ilə noyabr ayının 1-i ölkəmizdə Kənd Təsərrüfatı İşçiləri Günü kimi qeyd olunur. AZƏRTAC kənd təsərrüfatı naziri İnam Kərimovun aqrar sahə işçilərinin peşə bayramı münasibətilə məqaləsini təqdim edir. Məqalədə aqrar sektorda aparılan islahatlar, qazanılan uğurlar və qarşıda duran vəzifələrdən söhbət açılır.**

* * *

**Kənd təsərrüfatının inkişafı daim diqqət mərkəzindədir. Əminəm ki, kənd təsərrüfatı sahəsində aparılan islahatlar daha da böyük nəticələrə çatmağa imkan verəcəkdir. Kənd Təsərrüfatı Nazirliyi indi çox ciddi islahatlar aparır. Hesab edirəm ki, bu islahatlar nəticəsində kənd təsərrüfatının uzunmüddətli, dayanıqlı inkişafı təmin ediləcək.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

## Müasir çağırışlar fonunda yeni trendlər

İnsanların zəruri ərzaq ehtiyaclarının ödənilməsi cəmiyyətin inkişafının ilkin mərhələsindən bu günədək əsas çağırışlardan biri olmaqda davam edir. Bu səbəbdən hər bir ölkədə kənd təsərrüfatının inkişafı prioritet vəzifə kimi çıxış edir. 2050-ci ilədək 9,3 milyard nəfər olması gözlənilən dünya əhalisinin qidalanması üçün ümumi ərzaq istehsalının təxminən 70 faiz artırılması zəruri olacaq. Bununla yanaşı, dünyada həyat səviyyəsi standartlarının yüksəlməsi trendinə uyğun olaraq ərzaq məhsulları istehsalının strukturunda sağlam və keyfiyyətli məhsullara tələbat da artmaqdadır.

Buna görə 2015-ci ildə BMT-nin qəbul etdiyi "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik" sənədində aclığın ləğv edilməsi, qidalanmanın yaxşılaşdırılması, ərzaq təhlükəsizliyinin və kənd təsərrüfatının dayanıqlı inkişafının təmin edilməsi əsas məqsədlərdən biri kimi müəyyənləşdirilib.

Bu çağırışlar fonunda dünyada kənd təsərrüfatı sahəsinin inkişafında yeni trendlər müşahidə olunur. Qlobal miqyasda urbanizasiya proseslərinin sürətli davamı və 4-cü sənaye inqilabı mərhələsinə keçidin başlaması nəticəsində aqrar sektorun rolunda və strukturunda əhəmiyyətli dəyişikliklər baş verir. Belə ki, torpaq və su resurslarının məhdudluğu fonunda qlobal ərzaq təchizatının əhəmiyyətli dərəcədə artırılması təmin olunmalıdır. Bu isə intensiv istehsal üsullarının və dayanıqlı kənd təsərrüfatı istehsalına imkan verən yeni texnologiyaların tətbiqinin genişləndirilməsini zəruri edir. Ona görə kənd təsərrüfatında müasir texnologiya və innovasiyaların geniş şəkildə tətbiqi hazırda qlobal ərzaq təhlükəsizliyinin gücləndirilməsinin və ətraf mühitə mənfi təsirlərin azaldılmasının əsas vasitəsi kimi çıxış edir. Bunlarla yanaşı, torpaqlardan dayanıqlı istifadə edilməsi, kənd təsərrüfatının qlobal iqlim dəyişikliklərinə uyğunlaşdırılması, ərzaq məhsulları istehsalının həcminin artırılması həm də bu sahədə islahatların davamlı olaraq həyata keçirilməsini zərurətə çevirir.

Tarixən böyük əkinçilik ənənələrinə malik olan Azərbaycan bu beynəlxalq çağırışlara cavab verən azsaylı ölkələrdən biridir. Hələ sovetlər dönəmində ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan geridə qalmış respublikadan böyük potensiala malik aqrar-sənaye kompleksinin formalaşdırıldığı, mövcud resursların səmərəli istifadə edildiyi və intensiv inkişaf mexanizmlərinin geniş tətbiq olunduğu dinamik inkişaf edən ölkəyə çevrildi. Müstəqillik bərpa edildikdən sonra Ümummilli Liderin rəhbərliyi ilə tarixi əhəmiyyət kəsb edən aqrar islahatlar uğurla həyata keçirildi və kənd təsərrüfatının dayanıqlı inkişafı üçün möhkəm baza yaradıldı. 1990-1995-ci illərdə ölkədə kənd təsərrüfatı məhsulları istehsalının həcmində kəskin azalma olduğu halda, 1995-ci ildən sonra bu sahədə davamlı artım əldə edildi. Ən əsası isə Ulu Öndərin siyasi iradəsi ilə həyata keçirilən aqrar islahatlar sayəsində azad bazar münasibətlərinə və özəl mülkiyyətə əsaslanan yeni sistemə uğurlu keçid təmin olundu.

Son 15 ildə aparılan böyük həcmli kompleks işlər sayəsində Azərbaycan bu gün müasir inkişaf mərhələsinə daxil olub. Bu inkişafın əsasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən müstəqilliyimizin, təhlükəsizliyimizin, tərəqqinin, müasirləşmənin, sosial rifahın və iqtisadi inkişafın təmin olunmasında müəyyən edilən siyasi kurs dayanır. Digər sahələr kimi, aqrar sahə də özünün dinamik inkişafı ilə bu çağırışlara cavab verərək, keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Dövlətimizin başçısının qəbul etdiyi siyasi qərarlar kənd təsərrüfatının inkişafı ilə bağlı qabaqcıl tənzimlənmə və dəstək mexanizmlərinin ölkəmizdə də geniş tətbiq olunmasına real zəmin yaradıb.

Aqrar islahatların müasir mərhələsində strateji yanaşmanın əsasını iqtisadiyyatın şaxələndirilməsi və modernləşdirilməsi, neftdən asılılığın azaldılması, qlobal bazarlara daha sıx inteqrasiya olunması, məhsuldarlığın artırılması hesabına istehsal xərclərinin azaldılması və fermerlərin maddi rifahının yüksəldilməsi təşkil edir.

Son illər bu istiqamətdə ölkəmizdə sistemli şəkildə həyata keçirilən islahatlar və göstərilən yüksək dövlət dəstəyi nəticəsində kənd təsərrüfatında istehsal göstəriciləri davamlı olaraq yüksəlib. Bu nəticələr daxili bazarda yerli istehsal hesabına təklifin artmasına, özünütəminetmə səviyyəsinin yüksəlməsinə, fermerlərin gəlir əldə etmək imkanlarının yaxşılaşmasına şərait yaratmaqla bərabər, qeyri-neft ixracının artırılmasına da mühüm töhfə verib.

## Kənd təsərrüfatında artım davamlı xarakter daşıyır

Azərbaycanda həyata keçirilən genişmiqyaslı aqrar islahatlar hesabına kənd təsərrüfatında artım tempi dayanıqlığı ilə seçilir. 2003-2017-ci illərdə kənd təsərrüfatı məhsulları istehsalının real artımı ümumilikdə 166,4 faiz, o cümlədən bitkiçilik sahəsində 156,7 faiz, heyvandarlıq sahəsində isə 177,8 faiz təşkil edib. Dünya Bankının məlumatlarına əsasən, bu illər ərzində Azərbaycanda kənd təsərrüfatı sahəsinin real artımı dünya üzrə orta göstəricidən, habelə region ölkələrinin müvafiq göstəricisindən yuxarı olub.

Kənd təsərrüfatı sahəsində dinamik inkişaf trendi cari ildə də davam edib, ilk 9 ayda kənd təsərrüfatı məhsulunun ümumi həcmi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 4,3 faiz, o cümlədən bitkiçilik məhsullarının istehsalı 5,8 faiz, heyvandarlıq məhsullarının istehsalı isə 2,7 faiz artıb. Bir sözlə, dövlətimizin başçısının qeyd etdiyi kimi, "Biz kənd təsərrüfatının ardıcıl artımını görürük".

Aqrar islahatların hazırkı mərhələsi həm də yüksək əlavə dəyər yaradan ənənəvi sahələrin inkişafı baxımından tarixi dönüş dövrü kimi xarakterizə oluna bilər. Belə ki, pambıqçılıq, tütünçülük, çəltikçilik, baramaçılıq, çayçılıq, üzümçülük və sitrus meyvəçiliyi ilə bağlı qəbul olunmuş dövlət proqramları çərçivəsində bu sahələrin inkişafı üzrə tədbirlər ardıcıl və sistemli şəkildə həyata keçirilib. Nəticədə yüksək əlavə dəyər və kənd yerlərində geniş məşğulluq imkanı yaradılan sənaye təyinatlı və ixracyönümlü bu sahələrdə əhəmiyyətli inkişaf dinamikası əldə olunub.

Pambıqçılıqda həyata keçirilən məqsədyönlü tədbirlər məhsuldarlığın artırılmasını və son nəticədə bu sahənin ənənəvi nüfuz və şöhrətinin qaytarılmasını təmin edəcək. Kənd təsərrüfatı məhsulları üzrə emal sənayesinin gücləndirilməsi istiqamətində görülən tədbirlər çərçivəsində Ucar rayonunda pambıq emalı, pambıq yağı və lifsiz pambıq toxumu istehsalı zavodları istifadəyə veriləcək. Bu isə ölkədə sahənin inkişafına mühüm töhfə olmaqla bərabər, lifsiz pambıq toxumuna tələbatın yerli istehsal hesabına ödənilməsinə imkan verəcək.

İntensiv ferma modelinin tətbiqinin genişləndirilməsi nəticəsində son illərdə heyvandarlıq sahəsində artım əsasən intensiv inkişaf hesabına təmin edilib.

Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalı üzrə müqayisəli üstünlüklərin daha da artması hesabına onların ixracında yüksək dinamikaya nail olunub. Son 15 ildə kənd təsərrüfatı məhsullarının ixrac həcmi 6,3 dəfə, o cümlədən meyvə-tərəvəz məhsullarının ixracı 10,4 dəfə, cari ilin səkkiz ayında isə tərəvəz ixracı 8,4 faiz, meyvə ixracı 32,5 faiz və pambıq xammalı ixracı 2,2 dəfə artıb.

Ölkədə uğurla aparılan aqrar siyasət nəticəsində kənd təsərrüfatında əlverişli bazar şərtləri formalaşıb və biznes fəallığı xeyli yüksəlib. Bunlar özünü aqrar sektorda muzdla çalışan işçilərin sayının və investisiya qoyuluşunun həcminin artmasında da büruzə verib.

Yerli istehsal üzrə potensialın güclənməsi və rəqabətqabiliyyətliliyin yüksəlməsi hesabına ölkədə ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsi də əsaslı şəkildə artıb. Azərbaycan dövlət müstəqilliyini bərpa etdiyi dövrlərdə ət və süd məhsulları üzrə bu göstərici 30-35 faiz olduğu halda, hazırda 90 faizə yaxındır. Bütün növ tərəvəz və meyvə ilə özünütəminetmə səviyyəsi 100 faizdən çoxdur.

Ayrı-ayrı sahələr üzrə özünütəminetmə səviyyəsinin yerli istehsal hesabına artırılması, inkişaf və idarəetmə məsələlərinin daha çevik tənzimlənməsi, dövlət dəstəyini gücləndirməklə müvafiq sahələr üzrə proqram yanaşmasının tətbiq edilməsi və ünvanlı siyasət tədbirləri mexanizminin yaradılması məqsədilə dövlətimizin başçısının tapşırığına əsasən "Heyvandarlığın intensiv inkişaf etdirilməsinə və örüş-otlaq ərazilərinin səmərəli istifadə olunmasına dair Dövlət Proqramı", "Taxılçılığın inkişafına dair Dövlət Proqramı" və "Toxumçuluğun inkişafına dair Dövlət Proqramı"nın hazırlanması istiqamətində aparılan işlər yekun mərhələsindədir.

## Aqrar islahatların müasir mərhələsinin təməl prinsipləri

Aqrar sahədə inkişafın davamlılığını təmin etmək üçün müəyyənləşdirilmiş islahatlar elmi yanaşmalara söykənməklə fermerlərin və kənd zəhmətkeşlərinin mənafeyinə xidmət etmək strategiyasına əsaslanır. Bunu nəzərə alaraq, Kənd Təsərrüfatı Nazirliyi öz fəaliyyətində 3 əsas prinsipi - kəndli və fermerlərə yaxınlıq, səmərəli idarəçilik və innovasiyaların tətbiqini rəhbər tutur.

Nazirlik təməl prinsiplərinə söykənərək funksional fəaliyyətini müasir tələblərə uyğun təşkil etmək üçün beş strateji istiqaməti əsas götürüb:

**1. Aqrar təhlil.** Aqrar sahədə təhlil, qiymətləndirmə və proqnozlaşdırmanın aparılması, proqram və layihələrin hazırlanması, sahənin strateji planlaşdırılması və innovativ inkişafı vəzifələrinin icrasını təmin etmək məqsədilə nazirliyin tabeliyində publik hüquqi şəxs statuslu Aqrar Tədqiqatlar Mərkəzi yaradılıb. Bu vəzifələrin həllini təmin etmək üçün Mərkəz beynəlxalq çağırışlara cavab verən və elmi yanaşmalara əsaslanan tədqiqat və analitik-informasiya xidmətlərinin göstərilməsi ilə məşğul olan peşəkar qurum kimi formalaşdırılır.

**2. Aqrar həllər.** Kənd təsərrüfatı sahəsində hazırda ən başlıca vəzifə məhsuldarlığın artırılması hesabına rəqabətqabiliyyətliliyin və ərzaq təhlükəsizliyinin təmin edilməsidir. Bu isə bütün istiqamətlərdə innovativ istehsal və idarəetmə texnologiyalarının, müasir və mütərəqqi metod və həllərin geniş tətbiqini tələb edir.

Aqraryönümlü elmi müəssisələrin təminatının gücləndirilməsi, innovativ yeniliklərin fermerlərə çatdırılması, bu qurumların məsləhət xidmətləri şəbəkəsinə çevrilməsi istiqamətində institusional islahatlar aparılaraq Aqrar Elm və İnnovasiya Mərkəzi formalaşdırılıb.

Hazırda aqrar elmin modernləşdirilməsi üzrə islahatlar davam etdirilir. Bu islahatlar çərçivəsində bütün elmi-tədqiqat institutlarının inzibati-laboratoriya binalarının əsaslı təmiri başa çatdırılıb. İnstitutlarda müasir avadanlıqlarla təchiz olunmuş torpaq, bitki və su analizi üzrə aqroekologiya və aqrokimya, genetika və seleksiya, ilkin toxumçuluq və tingçilik, xəstəlik və zərərvericilərə nəzarət laboratoriyaları yaradılıb, istixana və toxum emalı məntəqələri tikilib, müasir və məhsuldar meyvə bağları salınıb. Elmi-tədqiqat institutlarında yaradılan potensial hesabına istehsalçılar yüksək məhsuldarlığa malik toxum və tinglərlə təmin ediləcək.

Fermerlərin yüksək kondisiyalı və məhsuldar buğda, arpa və qarğıdalı toxumları ilə təmin edilməsi məqsədilə Xaçmaz, Şəki, Ağcabədi, Qobustan və Tovuz rayonlarında dənli bitki toxumlarının emalı müəssisələri qurulur.

**3. Aqrar bilik və bacarıqlar.** "Biliklər əsri" adlandırılan müasir dövrdə aqrar sahənin dayanıqlı inkişafı, ilk növbədə, elm və təhsilin müasir tələblərə uyğun təşkili ilə bağlıdır. Bu məqsədlə ölkənin aqrar kadr hazırlığının mərkəzi olan Azərbaycan Dövlət Aqrar Universitetinin (ADAU) təlim planları və proqramları dünyanın qabaqcıl universitetləri ilə əməkdaşlıq çərçivəsində təkmilləşdirilir. Bütün laboratoriyalar tamamilə yenilənərək müasir avadanlıqlarla təchiz edilib, yeni təcrübə bazaları yaradılıb, peşəkar mütəxəssislərin hazırlanması məqsədilə təşviqedici addımlar atılıb. Dövlətimizin başçısının tapşırığına əsasən bu ildən qəbul imtahanlarında 400 və 500-dən yuxarı bal toplayaraq ADAU-nun aqraryönümlü ixtisaslarına qəbul olunan tələbələrə müvafiq olaraq 100 və 200 manat əlavə təqaüdün verilməsinə başlanılıb.

Aqrar sahədə müasir tələblərə cavab verən təlim və informasiya məsləhət xidmətləri sisteminin mövcudluğu sahənin rəqabətqabiliyyətliliyinin təmin edilməsi üçün mühüm şərtlərdən biri kimi çıxış edir. Bu məqsədlə nazirlik tərəfindən "Fermerlərə təlim və məsləhət xidmətlərinin təşkili üzrə Strategiya" hazırlanıb, fermerlərə peşəkar təlimlərin və məlumatlandırma tədbirlərinin keçirilməsinə başlanılıb.

Kənd təsərrüfatı sahəsi üzrə modernləşdirilmiş elmi tədqiqatlar, təhsil, təlim və informasiya məsləhət xidmətləri sisteminin formalaşdırılması istiqamətində fəaliyyətlərin sistemli şəkildə həyata keçirilməsi məqsədilə "Aqrar Elm və Təhsilin İnkişafı üzrə Dövlət Proqramı" hazırlanaraq aidiyyəti üzrə təqdim olunub.

**4. Aqrar dəstək.** Məhsul istehsalçılarının stimullaşdırılması, onların istehsal xərclərinin azaldılması və gəlir əldə etmək imkanlarının artırılması məqsədilə dövlət tərəfindən böyük həcmdə dəstək tədbirləri göstərilir. Son 10 ildə kənd təsərrüfatı məhsulları istehsalçılarına müxtəlif dəstək tədbirləri üzrə 1.2 milyard manata yaxın subsidiya ödənilib.

Aqrar sektorun bütün istiqamətləri üzrə təminatının, xüsusilə kənd təsərrüfatı texnikası ilə təchizatın daha da yaxşılaşdırılması üçün dəstək və xidmət tədbirləri davam etdirilib. "Aqrolizinq" ASC tərəfindən ölkəyə 44 minə yaxın kənd təsərrüfatı texnikası, 843 min ton mineral gübrə və 30 mindən artıq damazlıq heyvan gətirilərək güzəştli şərtlərlə lizinq yolu ilə istifadəyə verilib.

Nazirlik tərəfindən yaradılmaqda olan "Elektron kənd təsərrüfatı" informasiya sisteminin tətbiqi aqrar sahədə, o cümlədən subsidiyaların verilməsində şəffaflığı və çevikliyi təmin edəcək. Bütün xidmətlərin "elektron hökumət" üzərindən həyata keçirilməsi fermerlərə əlavə üstünlüklər yaradacaq. Onların məhsuldarlıq və satış üzrə proqnozlaşdırma imkanları, məlumatlılığı artacaq, dövlət xidmətlərinin sadələşdirilməsinə və sənədlərin azaldılmasına, xidmətlərin əlçatanlığına, habelə yeni bazar alətlərinin tətbiqinə imkan verəcək.

Fermerlərə göstərilən dövlət qayğısının institusional mexanizmlərinin təkmilləşdirilməsi, aqrar sahədə xidmətyönümlü fəaliyyətə üstünlüyün verilməsi, fermerlərlə işin gücləndirilməsi, innovasiyadan istifadə ilə bağlı maarifləndirmənin həyata keçirilməsi məqsədilə Azərbaycan Prezidentinin müvafiq Fərmanına uyğun olaraq rayon (şəhər) kənd təsərrüfatı idarələrinin əsasında Dövlət Aqrar İnkişaf mərkəzləri (DAİM) yaradılıb. Bununla yanaşı, nazirlik yanında Fermerlər Şurası və Aqrar Məşvərət Şurası təsis edilib. DAİM-lərin və burada fəaliyyət göstərən Fermer Şuralarının formalaşdırılması prosesi yekunlaşıb.

**5. Aqrar ticarət.** Kənd təsərrüfatı sahəsində hazırda iqtisadi fəallığın yüksəlməsi, bu sahəyə böyük həvəsin göstərilməsi və məhsul bolluğunun yaranması müşahidə olunur. Fermerlər üçün bazar şərtlərinin yaxşılaşdırılması, məhsulların satılmasına və satışda yaranan problemlərin aradan qaldırılmasına yardımın göstərilməsi məqsədilə nazirlik yanında Dövlət Aqrar Ticarət Şirkəti yaradılıb.

Ölkə iqtisadiyyatının bütün sahələrində, o cümlədən aqrar sahədə əldə edilən uğurlar və yüksək nəticələr Azərbaycanda dinamik inkişafın göstəricisidir. Bu tərəqqi və rifah, əhalinin maddi durumunun əhəmiyyətli dərəcədə yaxşılaşması aparılan məqsədyönlü dövlət siyasətinin bəhrəsidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bəyan etdiyi kimi, "Azərbaycanın dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşı durur". Öz şərəfli əməyi ilə ölkənin ərzaq təhlükəsizliyinə misilsiz töhfələr verən və əhalinin davamlı surətdə ərzaqla təmin olunması missiyasını üzərinə götürən kənd əməkçiləri və fermerlər də dövlətin xüsusi diqqət və qayğısı ilə himayə olunub. 1 noyabr Kənd Təsərrüfatı İşçiləri Gününün təsis edilməsi onların tükənməz əməyinə dövlət tərəfindən verilən yüksək qiymətin bariz nümunəsidir. Kənd zəhmətkeşlərinin gərgin əməyi sayəsində aqrar sahədə qazanılan nailiyyətlər və davamlı uğurlar dövlətimizin başçısının onlara verdiyi bu qiymətin, göstərdiyi yüksək diqqət və qayğının nəticəsidir.

Kənd Təsərrüfatı Nazirliyinin kollektivi peşə bayramı münasibətilə bütün kənd təsərrüfatı işçilərini, xüsusilə məhsul istehsalı ilə məşğul olan kənd zəhmətkeşlərini ürəkdən təbrik edir, onlara şəxsi həyatlarında və işlərində uğurlar arzulayır. ■

# Kənd təsərrüfatına diqqət ilbəil artır

**Azərbaycanın münbit torpaqları, bol su ehtiyatları, iqlim qurşağının zənginliyi burada əsrlər boyunca yüksək əkinçilik mədəniyyəti formalaşdırmışdır. İnsanlar tarix boyu ölkəmizdə bol məhsul əldə etmiş, heyvandarlığı inkişaf etdirmişlər. Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci mərhələsində (1969-1982-ci illər) artıq insanlar aqrar sahənin təkcə ənənəvi sahələrinin inkişafı ilə deyil, həm də yeni sahələrinin formalaşdırılması ilə məşğul oldular, bu dövrdə təbii iqlim şəraitindən daha səmərəli istifadənin əsası qoyuldu.**

Heydər Əliyevin qətiyyətli, gərgin əməyi sayəsində 1982-ci ildə 1969-cu ilə nisbətən respublikada taxıl istehsalı 2,1 dəfə, pambıq 1,9 dəfə, tütün 2,3 dəfə, kartof 1,6 dəfə, tərəvəz 2,5 dəfə, bostan məhsulları 1,9 dəfə, meyvə və giləmeyvə 6,6 dəfə, çay 2,8 dəfə, üzüm 7,7 dəfə artdı.



Amma ötən əsrin 90-cı illərinin əvvəllərində respublikamızdakı siyasi qarmaqarışıqlıq, hakimiyyətsizlik, resurslardan səmərəli istifadə olunmaması, istehsal infrastrukturlarının dağıdılması, keçmiş ittifaq respublikaları ilə iqtisadi əlaqələrin qırılması Azərbaycan iqtisadiyyatını, o cümlədən aqrar sahəni böhran vəziyyətinə salmışdı. 1990-95-ci illər ərzində kənd təsərrüfatı məhsullarının istehsalı 58 faiz azalmışdı.

Respublikanın kənd təsərrüfatını böhran vəziyyətindən çıxarmaq üçün mövcud böyük istehsal və iqtisadi potensialdan səmərəli istifadə etmək, iqtisadi mexanizmləri təkmilləşdirmək lazım idi. Mövcud vəziyyəti düzgün qiymətləndirən Heydər Əliyev aqrar sahədə islahatlar keçirməyi qərara aldı.

Azərbaycanda aqrar islahatların hüquqi bazasının yaradılmasında, təşkilində və həyata keçirilməsində Heydər Əliyevin misilsiz xidməti oldu. Aqrar islahatların aparılmasına, dərinləşməsinə, mülkiyyət münasibətlərinə, sahibkarlığın formalaşdırılmasına və bu sahənin dövlət tənzimlənməsinə aid onlarca sərəncam, fərman, qanun, normativ-hüquqi sənəd qəbul olundu.



Görülmüş bu tədbirlər nəticəsində ölkə iqtisadiyyatında, o cümlədən aqrar sektorda keyfiyyətcə və məzmunca yeni bir mərhələnin başlanğıcı qoyuldu. 1995-ci ildən etibarən ölkəmizdə 1970 ictimai təsərrüfatda aqrar islahatlar aparıldı, 3,4 milyon nəfərə (və ya 872 min ailəyə) 1,4 milyon hektar torpaq, 830 min nəfərə isə əmlak payı verildi.

Ümummilli lider Heydər Əliyevin 2 mart 2001-ci il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasının Ərzaq Təhlükəsizliyi" Proqramı qəbul olundu.

Ümummilli liderin siyasi kursunun layiqli davamçısı, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən bu vəzifələr sonrakı dönəmdə uğurla davam və inkişaf etdirildi. Onun "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" 24 noyabr 2003-cü il, "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" haqqında 11 fevral 2004-cü il, "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" haqqında 14 aprel 2009-cu il tarixli fərmanları ölkədə aqrar bölmənin inkişafına güclü təkan verdi.

**(davamı 5-ci səhifədə)**

# Müdafiə naziri Naxçıvan istiqamətində işğaldan azad edilmiş ərazilərdə olub

**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, Naxçıvan Qarnizonu qoşunlarının xüsusi təyinatlı birləşmə və hissələrinin birgə taktiki-xüsusi təlimində iştirak etmək üçün Naxçıvan Muxtar Respublikasına səfər edən müdafiə naziri, general-polkovnik Zakir Həsənov işğaldan azad edilmiş ərazilərdə olub.**



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir Günnüt kəndi və ətraf ərazilərdə yerləşən mövqelərdə, Qızılqaya yüksəkliyində yaradılmış etibarlı müdafiə sistemi, görülmüş mühəndis işləri və yeni mövqelərdə qısa zamanda tikilən əsgəri-məişət kompleksləri ilə tanış olub. Bölmələrin yerləşdiyi ərazinin relyefinə və iqlim şəraitinə uyğun inşa olunan binalar keyfiyyətli mebel dəstləri və digər lazımi avadanlıqla, daimi işıq və istilik sistemi ilə təchiz edilib.

General-polkovnik Z.Həsənov ön xətdə əsgər və zabitlərlə görüşüb, xidmətin təşkili ilə maraqlanıb. Nazir xidmətdə fərqlənən bir qrup hərbi qulluqçuya qiymətli hədiyyələr təqdim edib.

**AZƏRTAC**

# İsveçrəli tələbələr Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə məlumatlandırılıblar

**Oktyabrın 30-da Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayevin İsveçrənin Franklin Universitetinin Bakıda qonaq olan tələbələrdən ibarət nümayəndə heyəti ilə görüşü olub.**



Komitədən AZƏRTAC-a bildiriblər ki, görüşdə qonaqlara Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixi kökləri və mövcud vəziyyəti barədə məlumat verilib. Qeyd olunub ki, Ermənistan ötən əsrin 80-ci illərinin sonunda ölkəmizə qarşı ərazi iddiası qaldırıb, az sonra isə hərbi təcavüzlə torpaqlarımızın 20 faizini zəbt edib. İşğalçının həmin əraziləri dərhal və qeyd şərtsiz azad etməsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının 25 il əvvəl qəbul etdiyi 4 qətnamə, eləcə də digər beynəlxalq təşkilatların qərarları icra olunmur. Ermənistanın işğalçılıq siyasəti nəticəsində 1 milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün həyatı yaşamağa məcbur olub, fiziki, mənəvi və maddi məhrumiyyətlərə məruz qalıb.

Dövlət Komitəsinin sədri bildirib ki, Prezident İlham Əliyev məcburi köçkünlərlə bağlı məsələləri ölkəmizdə uğurla icra edilən sosial siyasətin prioritet istiqamətlərindən biri kimi müəyyən edib. Birinci vitse-prezident xanım Mehriban Əliyeva məcburi köçkünlərin problemlərinə həssaslıqla yanaşır, Bakıda və Sumqayıtda ağır şəraitdə yaşayan məcburi köçkünlərin, ilk növbədə, yeni mənzillərə köçürülməsi ilə bağlı verdiyi tapşırığın icrasına şəxsən nəzarət edir.

İsveçrəli tələbələrə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan dövlət gənclər siyasəti və onun uğurlu nəticələri barədə də ətraflı məlumat verilib. Gənclərin təhsil səviyyəsinin yüksəldilməsi, işlə təmin olunması və digər sosial-iqtisadi problemlərinin həlli üçün Dövlət Proqramlarının icra edildiyi bildirilib. Qeyd olunub ki, ölkədə gənclərin çoxsaylı ictimai təşkilatları fəaliyyət göstərir, azərbaycanlı gənclər beynəlxalq tədbirlərdə xalqımızın haqq səsini ucaldır, ədalətli mövqeyini müdafiə edirlər.

Azərbaycanın multikultural və tolerant dəyərlərə hörmət baxımından dünyanın nümunəvi ölkələrindən biri olduğu diqqətə çatdırılıb. Bildirilib ki, ölkəmizdə müxtəlif dinlərin və xalqların nümayəndələri dostluq və mehriban qonşuluq şəraitində yaşayırlar. Respublikanın müxtəlif ərazilərində məscid, kilsə və sinaqoqlar var, onlara dövlət tərəfindən diqqət və qayğı göstərilir.

Daha sonra qonaqlar məcburi köçkünlərin doğma yurd-yuvalarını tərk etdikdən sonra yaşadığı çadır düşərgələrinin, fin tipli qəsəbələrin, yataqxanaların və yeni salınmış qəsəbələrin maketlərinə baxıblar. Bildirilib ki, köçkünlüyün ilk illərində normal yaşayış şəraiti olmayan tikili və binalarda müvəqqəti sığınacaq tapan vətəndaşlarımız üçün müasir tipli qəsəbələr salınır və onlar yeni mənzillərlə təmin olunurlar.

**AZƏRTAC**

# Gənclər ordu sıralarına yollanır



Bakının Sabunçu rayonunda vətənpərvər gənclərin yetişdirilməsi, dünya təcrübəsinə əsaslanan yeni nəslin hərtərəfli inkişafı ilə bağlı siyasətin həyata keçirilməsinə maksimum səy göstərilir. Silahlı Qüvvələrə layiqli oğulların hazırlanması, çağırışçı və çağırışaqədərki gənclərlə məqsədyönlü iş aparılması diqqət mərkəzindədir.

Oktyabrın 1-dən ölkə başçısının sərəncamı ilə gənclərin növbəti həqiqi hərbi xidmətə çağırışına başlanmışdır. Məhz buna görə də rayonda gənclər böyük coşqu və Vətən sevgisi ilə əsgəri xidmətə yollanır, onlar qüdrətli Azərbaycan ordusunda xidmət etməkdən qürur hissi keçirirlər.

Biz qəlbləri oxşayan bir payız günündə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Sabunçu rayon idarəsində olduq. Geniş əraziyə malik olan idarənin həyətində coşqu, təntənə duyulurdu. Əllərində tər gül-çiçək bağlamaları tutmuş gənclərin çöhrəsində sevinc, fərəh duyulurdu. Hiss olunurdu ki, əsgəri xidmətə yola düşən Vətənə sipər oğullar həyatın ən gözəl anını yaşayır, orduda xidmət etməkdən qürur hissi keçirirlər.

İdarənin həyətində gənclərin vətənpərvərlik tərbiyəsində mühüm rol oynayan müxtəlif şüar və diaqramlar diqqəti cəlb edir.

Bir qrup gənc idarənin çağırış şöbəsinin baş zabiti, mayor Yaşar Hüseynovun əhatəsində idi. O, sabahın əsgərlərinə qüdrətli Azərbaycan ordusu ilə bağlı dolğun məlumat verir, onlara tövsiyə edirdi ki, xidmət dövründə ölkəmizin ərazi bütövlüyünün qorunub saxlanılmasını diqqət mərkəzində saxlasınlar, ata-babaların şanlı döyüş ənənələrinə sadiqlik nümunəsi nümayiş etdirsinlər.

Gənclərin hərbi xidmətə yolasalınma mərasimində Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Sabunçu rayon idarəsinin rəisi, polkovnik Rövşən Babayev çıxış edərək dedi:

—Müasir, mütəşəkkil ordunu yaratmaq ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri olmuşdur. Bu gün Azərbaycanın güclü ordusu vardır. Azərbaycan ordusu qarşıda duran bütün vəzifələri həll etməyə qadir bir ordudur.

Son illərdə ordu quruculuğu ilə bağlı strateji xətt Azərbaycanda prioritet istiqamətlərdən biri olaraq qalır. Orduda islahatların aparılması və hərbi hissələrin maddi-texniki bazasının möhkəmləndirilməsi dövlət başçısının daim diqqət mərkəzindədir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev qüdrətli Azərbaycan ordusu haqqında demişdir: **“Biz hərbi gücümüzü artırmalıyıq və artırırıq. Bu gün Azərbaycan ordusu qarşıda duran bütün vəzifələri şərəflə yerinə yetirməyə hazırdır. Bir daha demək istəyirəm ki, döyüş qabiliyyəti, peşəkarlıq, vətənpərvərlik ruhu, maddi-texniki bazanın möhkəmləndirilməsi, orduya dövlət tərəfindən göstərilən diqqət və hörmət — bütün bu amillər bizə imkan verəcək ki, doğma torpaqlarımızı işğalçılardan azad edək”.**

Budur, vaxt gəlib çatır. Meydan yenidən musiqiyə verilir. Gənclərdən Hikmət Hüseynli, Qüdrət Gülməmmədov, İrşad Qarayev, Vüsal Nəsirov və başqaları mərasim iştirakçılarının xeyir-duası ilə ordu sıralarına yollanırlar.

**Qədir ASLAN,**
**“Respublika”.**

# SOCAR AQŞ YENİ REKORDLARA İMZA ATDI

SOCAR AQŞ bu günlərdə milli qazma sənayesində yeniliyə imza atıb. 3000 at gücünə malik olan Drillmec HP yeni nəsil qazma avadanlığından uğurla istifadə edən müəssisə “Bulla” yatağının 6 saylı dəniz stasionar özülündə 113 nömrəli quyuda ağır çəkili aralıq kəmərinin birdəfəyə endirmək cəhdini uğurla həyata keçirib. Belə ki, ümumi çəkisi havada 546 ton olan ikinci aralıq kəmərin 5093 m dərinliyə, çəkisi 393 ton olan texniki kəmərin isə 5619 m dərinliyə birdəfəyə endirilməsi və sementlənməsi uğurla həyata keçirilib.

Baş direktorun müavini, Baş geoloq İftixar Qasımov bildirib: “Hazırda 113 saylı quyuda qazma işləri 5620 m dərinliyində davam etdirilir. Qazma işləri “Bulla” yatağı üçün ən məhsuldar sayılan VII horizontu tam bağlamaqla davam etdiriləcək və quyruq kəməri endirilərək sementlənəcəkdir.



Layihəyə əsasən 113 nömrəli istismar quyusu VIII horizontu açmaqla tamamlanacaq və istismara veriləcəkdir. Xəzər dənizinin Azərbaycan sektorunda yüksək təzyiqli və temperaturlu quyuların qazılması zamanı və o cümlədən, “Bulla” yatağı üzrə V və VII horizontlardan beynəlxalq standartlara cavab verən süxur nümunələrinin götürülməsini ilk dəfə olaraq SOCAR AQŞ həyata keçirmişdir. Əminəm ki, görülən işlər nəticə etibarilə respublikamızın qazma sənayesinin inkişafında yeni səhifə açacaqdır!”.

Qeyd edək ki, milli qazma sənayesində ilk dəfə olaraq SOCAR AQŞ 2017-ci ildə “Bulla” yatağının 6 saylı dəniz stasionar özülündən qazılan 78 nömrəli axtarış quyusunun tikintisi zamanı dərin quyularda qoruyucu kəmərin iki mərhələdə endirilməsi ənənəsinə son qoymuşdur.

**Müşfiq MİRZƏ,**
**“Respublika”.**

*Ərəb KİV-ləri:*

# İslam Ölkələri İnformasiya Agentlikləri İttifaqı nümayəndələrinin Azərbaycana səfəri səmərəli keçib

**İslam Ölkələri İnformasiya Agentlikləri İttifaqının nümayəndə heyətinin Azərbaycana səfəri ərəb ölkələri mətbuatı, o cümlədən Səudiyyə Ərəbistanının, Misirin, Bəhreynin, Omanın milli informasiya agentlikləri tərəfindən geniş işıqlandırılıb, səfərin məhsuldar və səmərəli keçdiyi vurğulanıb.**




AZƏRTAC xəbər verir ki, ərəb mətbuatında İttifaqa daxil olan nüfuzlu media qurumlarının nümayəndələrinin ölkəmizdə keçirdiyi görüşlər barədə məlumatlar yer alıb. Qeyd olunub ki, bu görüşlərdə İslam Ölkələri İnformasiya Agentlikləri İttifaqı və onun fəaliyyətindən, Azərbaycanın İslam həmrəyliyinin gücləndirilməsinə verdiyi dəyərli töhfələrdən və islamofobiya hallarına qarşı kəskin mövqeyindən geniş söhbət açılıb.

Ərəb KİV-ləri nümayəndə heyəti ilə AZƏRTAC-da keçirilən görüşə də xüsusi diqqət ayırıb. Vurğulanıb ki, görüşdə AZƏRTAC-ın İdarə Heyətinin sədri, Dünya Xəbər Agentlikləri Konqresinin və OANA-nın prezidenti Aslan Aslanov agentliyin tarixi, strukturu, beynəlxalq əlaqələri, habelə bu günlərdə Bakıda keçirilmiş VI Beynəlxalq Humanitar Forum haqqında ətraflı məlumat verib. Bildirilib ki, Forum çərçivəsində AZƏRTAC-ın təşkilatçılığı ilə “Yanlış məlumatlandırma siyasəti - müasir dünyada sabitliyə təhdid” mövzusunda keçirilən işçi sessiyada feyk xəbərlərin dünyada doğurduğu yeni çağırışlardan, təhdidlərdən bəhs olunub, yanlış məlumatlandırma siyasətinə qarşı birgə mübarizənin vacibliyi vurğulanıb.

Ərəb mediasında dərc olunan yazılarda İslam Ölkələri İnformasiya Agentlikləri İttifaqının büro üzvü olan AZƏRTAC-ın qurumun işində fəal iştirakının məmnunluq doğurduğu qeyd edilib, həmçinin nümayəndə heyətinin Azərbaycandakı tolerant mühit, Bakının gözəlliyi, hər addımda müşahidə olunan inkişafla bağlı təəssüratları əksini tapıb.

**AZƏRTAC**

# Dünya Bankının “Doing Business 2019” hesabatında Azərbaycan dünyanın ən çox islahat aparan ölkəsi elan olunub




**Dünya Bankının “Doing Business 2019” hesabatında Azərbaycan dünyanın ən çox islahat aparan ölkəsi elan olunub.**

**AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının mətbuat üçün açıqlamasında bildirilir.**

Oktyabrın 31-də keçirilən brifinqdə açıqlamanı təqdim edən Prezident Administrasiyasının məsul əməkdaşı Vüsal Şıxəliyev deyib ki, Prezident İlham Əliyevin qeyd etdiyi kimi, 2015-ci ilin sonlarından başlayaraq neft qiymətlərinin aşağı düşməsinə baxmayaraq, Azərbaycanda aparılan islahatlar daha da dərinləşib və mahiyyətcə yeni xarakter kəsb edib. Aparılan iqtisadi islahatlar nəticəsində ölkədə maliyyə sabitliyi və iqtisadi artım bərpa olunub, bir çox sahələrdə, xüsusilə kənd təsərrüfatı, qeyri-neft sənayesi və digər sektorlarda əhəmiyyətli irəliləyiş əldə edilib. Dövlətimizin başçısı tərəfindən ölkədə sahibkarlığa dəstək məqsədilə biznes mühitinin bütün sahələri, xüsusilə biznesə başlama, tikinti üçün icazələrin alınması, elektrik təchizatı şəbəkələrinə qoşulma, maliyyə mənbələrinə çıxış imkanlarının artırılması, vergilərin ödənilməsi, əmlakın qeydiyyatı, xarici ticarətin aparılması üzrə əhəmiyyətli irəliləyiş baş verib.

Dövlət-biznes tərəfdaşlığında qarşılıqlı inam daha da artıb, bu münasibətlər gələcək iqtisadi inkişafın təməl prinsipinə çevrilib.

Vurğulanıb ki, Azərbaycan Respublikası Prezidentinin güclü siyasi iradəsi və davamlı dəstəyi sayəsində aparılan kompleks iqtisadi islahatlar digər nüfuzlu beynəlxalq reytinqlərlə yanaşı, “Doing Business 2019” hesabatının da bütün indikatorlarını əhatə edib. Nəticədə 2017-ci il və 2018-ci ilin ilk 4 ayında təkcə bu hesabat üzrə 30-a yaxın normativ hüquqi akt qüvvəyə minməklə 70-dən çox islahat tədbiri həyata keçirilib və qeydə alınması üçün “Doing Business” komandasına təqdim olunub. Aparılan islahatlar nəticəsində vətəndaşların və sahibkarların məmnunluğunun artırılması, bu sahədə şəffaflığın təmin olunması ilə yanaşı, müxtəlif sektorlar üzrə inzibati prosedurların sayının və xərclərin minimuma endirilməsi, dövlət xidmətlərinin göstərilməsində keyfiyyətin daha da yüksəlməsinə nail olunub.

Diqqətə çatdırılıb ki, Azərbaycan Prezidentinin rəhbərliyi ilə həyata keçirilən islahatlar, öz növbəsində, “Doing Business 2019” hesabatında Azərbaycanın ümumi reytinqdə yeni rekorda imza atmasına, eləcə də əksər indikatorlar üzrə mövqeyinin daha üst səviyyəyə qalxmasına imkan verib. Belə ki, 2018-ci il oktyabrın 31-də Dünya Bankı tərəfindən yayılan “Doing Business 2019” hesabatında Azərbaycan dünyanın 10 ən islahatçı dövləti siyahısına daxil edilərək dünyanın ən çox islahat aparan ölkəsi elan olunub. Yeni hesabatda Azərbaycanın mövqeyi 2017-ci illə müqayisədə 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşıb, dünyanın bir çox ölkələrini geridə qoymaqla Müstəqil Dövlətlər Birliyi ölkələri arasında lider mövqeyə yüksəlib.

Bildirilib ki, hesabata əsasən ölkəmiz “Tikinti üçün icazələrin alınması” və “Kreditlərin alınması” indikatorlarının hər biri üzrə 100 pillə irəliləyərək ciddi nailiyyət əldə edib. Bunlarla yanaşı, “Kiçik investorların maraqlarının qorunması” indikatoru üzrə dünyada 2-ci yerə yüksəlməyə, “Biznesə başlama” (9-cu yer) indikatoru üzrə isə ilk onluğa düşməyə nail olunub. Bütövlükdə “Doing Business 2019” hesabatının 10 indikatorundan 8-i üzrə mühüm irəliləyiş qeydə alınıb. Eyni zamanda, əmək bazarının tənzimlənməsi indikatoru üzrə də aparılmış islahatlar Dünya Bankının ekspertləri tərəfindən qəbul edilib.

“Doing Business 2019” hesabatında deyilir: “Avropa və Mərkəzi Asiya bölgəsinə daxil olan Azərbaycan ən yaxşı təkmilləşdirmə göstəricilərinə malik 10 ölkə arasında və qlobal səviyyədə rekorda nail olaraq səkkiz sahə üzrə islahatlar aparmaqla, 2017-2018-ci illərdə biznes fəaliyyətinin daha da asanlaşdırılmasını təmin edib” (“DOİNG BUSİNESS 2019” - Training for Reform”, World Bank Group, page 13.).

Bu uğurlar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi siyasətin alternativsiz olduğunu və aparılan islahatların cəmiyyətin bütün təbəqələrinin, o cümlədən biznes subyektlərinin mənafelərini əks etdirdiyini bir daha göstərir.

Qeyd etmək lazımdır ki, Dünya Bankının hər il hazırladığı “Doing Business” hesabatı biznes mühitinin asanlığının qiymətləndirilməsi üçün dünyada ən vacib və etibarlı reytinq göstəricisi hesab olunur. “Doing Business” komandası ölkələr üzrə aparılan islahatları həm dövlət, həm də çoxsaylı biznes nümayəndələrindən, habelə məşhur konsaltinq şirkətlərindən toplanan sorğulara verilən cavablar əsasında qiymətləndirir. Aparılan islahatların yoxlanılması məqsədilə ölkələrə ayrı-ayrılıqda xüsusi ekspert missiyaları göndərilir, islahatların real praktikada tətbiqi yerində müvafiq meyarlarla araşdırılır. Nəticədə hər bir ölkənin həm ümumi, həm də 10 indikator üzrə xüsusi qiymət balı hesablanaraq mövqeləri müəyyən edilir.

“Doing Buisness” hesabatı xarici investorlar tərəfindən biznes mühitinə dair etibarlı mənbə kimi istinad edilən əsas reytinq göstəricisi olmaqla yanaşı, digər beynəlxalq təşkilatlar tərəfindən hazırlanan hesabatlarda (“Qlobal Rəqabətlilik Hesabatı”, “Qlobal İnnovasiyalar İndeksi”, “İqtisadi Azadlıq İndeksi”, “Qlobal İmkanlar İndeksi” və s.) baza rolunu oynayır.

“Bu, çox böyük uğurdur, dövlətimizin başçısının rəhbərliyi ilə həyata keçirilən kompleks islahatlar, xüsusilə qeyd edilən sahələr üzrə aparılan təkmilləşmə tədbirləri nəticəsində nail olunmuş növbəti nailiyyətlərdən biridir. Sözsüz ki, bu uğurların həyata keçirilməsində beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq əlaqələrimizin də rolu var və bu sahədə Dünya Bankının Beynəlxalq Maliyyə Korporasiyasını xüsusi qeyd etmək lazımdır”, - deyə Vüsal Şıxəliyev qeyd edib.

Beynəlxalq Maliyyə Korporasiyasının (İFC) ölkəmizdəki daimi nümayəndəsi Aliyə Əzimova bildirib ki, bu gün Azərbaycanın inkişafında və iqtisadi islahatlar sahəsində uzun bir yolun əhəmiyyətli nöqtəsindəyik. Azərbaycan müstəqillik dövründə iqtisadi sahədə böyük uğurlara nail olub. Qeyri-neft sektorunun inkişafını prioritet kimi müəyyən etmiş ölkə üçün “Doing Business” göstəricilərində uğurların əldə edilməsi növbəti inkişaf istiqamətlərini aydın görməyə imkan verir. Azərbaycan ötən il həyata keçirilən islahatların sayına görə regionda ön sırada olub.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı qeyd edib ki, əldə olunmuş nəticə Azərbaycan üçün tarixi rekorddur. Azərbaycan dünyada ən çox islahat aparan ölkədir. Çünki Azərbaycan hazırda “Doing Business” islahatlarına görə dünyada lider ölkədir və dünyanın top islahatçı ölkəsi statusunda qiymətləndirilib. “Doing Business” islahatı səviyyəsinə görə Azərbaycan postsovet məkanında ikinci, MDB məkanında birinci ölkədir. Bu islahatlar dövlətimizin başçısının siyasi iradəsi ilə aparılıb. Azərbaycan MDB məkanında ən sürətlə irəliləyən ölkədir. Ölkəmiz “Doing Business” hesabatında 32 pillə irəliləyib. Qazaxıstan 8, Rusiya 4, Belarus 1, Qırğızıstan 7, Ukrayna 5, Özbəkistan 2, Tacikistan isə 3 pillə geriləyib.

**AZƏRTAC**

# Böyük pedaqoq, alim, istedadlı yazıçı Mir Cəlal Paşayevin xatirə gecəsi keçirilib

## *Tədbirdə Mir Cəlalın 110 illik yubileyi münasibətilə nəşr olunmuş "Füzuli sənətkarlığı" kitabı təqdim edilib*





**Oktyabrın 31-də Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Milli Ədəbiyyat Muzeyində böyük pedaqoq, alim, istedadlı yazıçı Mir Cəlal Paşayevin xatirə gecəsi keçirilib. Tədbir çərçivəsində Mir Cəlal Paşayevin "Füzuli sənətkarlığı" kitabı, həmçinin Mir Cəlal Paşayev və Firidun Hüseynovun "XX əsr Azərbaycan ədəbiyyatı" dərsliyinin yenidən işlənmiş dördüncü nəşri təqdim edilib.**

### Sönməyən işıqlar

AZƏRTAC xəbər verir ki, xatirə gecəsində Nizami Gəncəvi adına Milli Ədəbiyyat Muzeyinin direktoru, akademik Rafael Hüseynov Mir Cəlal Paşayevin Azərbaycan ədəbiyyatında mövqeyindən söz açıb. Qeyd edib ki, Məhsəti Gəncəvi, Xaqani Şirvani, Nizami Gəncəvi, Məhəmməd Füzuli, Mirzə Fətəli Axundzadə, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Əhməd Cavad, Abdulla Şaiq, eləcə də Həmid Araslı, Feyzulla Qasımzadə, Mir Cəlal Paşayev, Məmmədhüseyn Təhmasib, Heydər Hüseynov kimi ədəbiyyatşünas alimlər Azərbaycanın gələcəyi üçün öz zəkası və qələmləri ilə işıq yandırmış insanlardır. Onların yandırdığı bu işıq Azərbaycan xalqının yolunu daim aydınlaşdıracaq.

Altmış il əvvəl, 1958-ci ildə Füzulinin vəfatının 400 illiyinin Azərbaycanda qeyd edildiyini xatırladan akademik Rafael Hüseynov Mir Cəlal Paşayevin həmin il nəşr etdirdiyi "Füzuli sənətkarlığı" kitabını ölkəmizdə müasir füzulişünaslığın əsasını qoyan əsər kimi səciyyələndirib. Diqqətə çatdırıb ki, görkəmli ədib 1940-cı ildə "Füzulinin poetik xüsusiyyətləri" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. Sonralar bu əsəri təkmilləşdirərək "Füzuli sənətkarlığı" adı ilə nəşr etdirib. Kitab "Ədibin Evi" tərəfindən Mir Cəlalın 110 illik yubileyi münasibətilə yenidən çap olunub. Muzeyin direktoru bu kitabın nəşrini işığın qayıtması kimi dəyərləndirib.

### Hər yazıçıdan jurnalist olmaz, yaxşı jurnalist isə yazıçı ola bilər

Mir Cəlalın tələbəsi olmuş Xeyrulla Əliyev müəllimi ilə bağlı xatirələrini bölüşüb. "İndi qəribə görünsə də, o dövrdə ali məktəblərdə dərsə davamiyyət jurnalları rus dilində yazılırdı. Bu səbəbdən də "Əliyev" familiyası "Aliyev" olurdu. Sanki buna etiraz əlaməti olaraq Mir Cəlal müəllim də, Məmmədhüseyn Təhmasib də, Abbas Zamanov da auditoriyada heç kimin adını həmin jurnaldan oxumaz, tələbələrdən kimin gəlmədiyini qrup nümayəndəsindən soruşardılar. Mir Cəlal müəllim elə sadə danışırdı ki, mən onun mühazirəsini yazmağa ehtiyac duymurdum, eyni zamanda, elə fikirlər söyləyirdi ki, mən onları yazmaya bilmirdim. Mir Cəlal müəllimin fikrincə, hər yazıçıdan jurnalist olmaz, yaxşı jurnalist isə yazıçı ola bilər", - deyən Xəlil Əliyev müəlliminin tələbələri yaradıcılığa ruhlandırdığını, yüksək insani keyfiyyətlərini vurğulayıb.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Akif Əlizadə Mir Cəlal Paşayevin həyat və fəaliyyəti haqqında fikirlərini bölüşüb. Bildirib ki, bu böyük şəxsiyyət təkcə ədəbi yaradıcılığı ilə deyil, həm də xeyirxah əməlləri, insanpərvərliyi ilə dərin rəğbət və məhəbbət qazanıb. Akademik Akif Əlizadə özünün də bir şəxsiyyət kimi formalaşmasında Mir Cəlal Paşayevin nümunəvi həyatının böyük rolu olduğunu, bu böyük yazıçının Azərbaycan ədəbiyyatı tarixində pedaqoq, alim və ədib kimi ən yüksək zirvəni fəth etdiyini diqqətə çatdırıb. Gənclik dövründə Mir Cəlalla görüşləri barədə xatirələrini bölüşən akademik Akif Əlizadə bu ailənin üzvlərinin bu gün də Azərbaycana işıq gətirdiklərini, ədibin övladlarının və nəvələrinin ölkəmizi dünyada təbliğ etdiklərini vurğulayıb.

### Xoşbəxt yazıçı və pedaqoq, xoşbəxt ata

Tədbirdə çıxış edən Xalq yazıçısı Elçin deyib ki, Mir Cəlal müəllim auditoriyaya girəndə əzəmətli bir pedaqoq təsiri bağışlayırdı. Ona görə ki, onun mənəvi dünyası əzəmətli idi, onun yaradıcılığı, daxilindəki xeyirxahlıq əzəmətli idi. Xoşbəxt yazıçı idi, ona görə ki, sovet sisteminə deyil, ədəbiyyata xidmət edirdi. Bugünkü oxucuların - müstəqil Azərbaycan vətəndaşlarının psixologiyası və tələbləri fərqli olsa da, Mir Cəlalın əsərləri indi də sevilə-sevilə oxunur. O, həm də xoşbəxt ədəbiyyatşünas alim idi. Ədəbiyyatşünaslığın sovet ideologiyasının tərkib hissəsi olmasına baxmayaraq, Mir Cəlal yenə də sistemə deyil, Azərbaycan ədəbiyyatının tarixinə xidmət edirdi. O, həm də xoşbəxt pedaqoq idi. Çünki pedaqoji fəaliyyətini komsomol və partiya ideologiyasına deyil, Azərbaycan xalqı üçün gərəkli oğullar yetişdirməyə həsr etmişdi. Mir Cəlal həm də xoşbəxt bir atadır; onun sovet dövründə yetişdirdiyi övladları bu gün müstəqil Azərbaycana layiqincə xidmət edirlər.

Akademik Vasim Məmmədəliyev diqqətə çatdırıb ki, Mir Cəlal böyük şəxsiyyət olduğu qədər də böyük sənətkardır. Onun xalq tərəfindən sevilməsinin səbəbi şəxsiyyətində bu iki keyfiyyətin bir-birini tamamlamasıdır. "Füzulinin sənətkarlığı" kitabı bu gün də hər kəsə lazımdır. Mir Cəlal Paşayev ədəbiyyatın bir çox sahələrində yeni söz demiş alimdir. Təkcə "Füzulinin sənətkarlığı" onun ədəbiyyat tariximizdə qalması üçün kifayət edər.

### Gözəl insanların gözəl əməlləri xatirələrdə yaşayır

Tədbirdə Feyzulla Qasımzadənin qızı Nigar Qasımzadə, Həmid Araslının qızı Nüşabə Araslı Mir Cəlalla bağlı xatirələrini bölüşüblər. Qeyd olunub ki, onun şəxsiyyəti özlüyündə bir məktəb idi. O, özü də bilmədən ətrafındakı gənclərə bir cəsarət verirdi. Mülayim xasiyyəti vardı, lakin prinsipial idi, mövqeyindən dönməzdi, yersiz güzəştə getməzdi. Bütün bu keyfiyyətləri ilə o, həm yazıçı kimi, həm də şəxsi nümunəsində insanların formalaşmasına müsbət təsir göstərirdi.

Mir Cəlalın tələbəsi olmuş Təhsin Mütəllimov deyib ki, Mir Cəlal müəllimin vəfatından 40 il ötür. Lakin gözəl insanların gözəl əməlləri onlar haqqında xatirələrdə yaşayır. Gərək elə mənalı ömür sürəsən ki, özündən sonra bu qədər xatirə qoyub gedəsən. Mir Cəlal müəllim məhz bu cür mənalı ömür sürüb. Təhsin Mütəllimov Mir Cəlal Paşayevin "Füzuli sənətkarlığı" kitabında dahi Füzuli eşqinin mahiyyətini açdığını vurğulayaraq, kitabın yenidən nəşrini yüksək qiymətləndirib.

Tədbirdə Nizami Gəncəvi adına Milli Ədəbiyyat Muzeyinin qocaman əməkdaşı Cümşüd Muradov, habelə professor Abdulla Abbasov da Mir Cəlalla bağlı xatirələrini bölüşüblər.

Sonda Mir Cəlalın oğlu Hafiz Paşayev tədbirin təşkilinə görə təşəkkürünü bildirərək deyib: "Siz böyük iş gördünüz. Əslində belə məclislər tez-tez olmalıdır. Ədəbiyyatımızda layiqli yeri olan insanlar çoxdur və onlar haqqında bu cür tədbirlər təşkil edilməlidir".

Hafiz Paşayev, həmçinin məktəb illərində atasının ona muğam üstündə oxunan qəzəllərin sözlərini izah etməsi ilə bağlı xatirələrini bölüşüb.

Ədibin oğlu qeyd edib ki, Mir Cəlalın "Füzuli sənətkarlığı" kitabı 1958-ci ildən sonra bir neçə dəfə nəşr edilib. Lakin o nəşrlər Mir Cəlalın özünün nəşr etdiyi kitabdan çox fərqlidir. Belə ki, həmin nəşrlərdə müasirləşdirmə aparılıb, dinlə, sovet ideologiyası ilə bağlı yerlər çıxarılıb. Lakin təqdimatı keçirilən kitab 1958-ci il nəşrinin mətninə əsaslanır.

Tədbirdə Aqil Məlikov və Hüseyn Məlikovun ifa etdikləri muğamlarda Füzuli qəzəlləri səsləndirilib.

Qeyd edək ki, "Füzuli sənətkarlığı", "XX əsr Azərbaycan ədəbiyyatı", "Azərbaycanda ədəbi məktəblər (1905-1917)", "Ədəbiyyatşünaslığın əsasları" adlı fundamental əsərləri ədəbiyyatşünaslıq elminin qiymətli mənbələrindəndir. Mir Cəlal Paşayevin təkcə elmi irsi ilə deyil, həm də xeyirxahlığı, böyük müəllimliyi, sadəliyi ilə qəlblərdə özünə abidə ucaldır.

**AZƏRTAC**

# Akademik Cəlal Əliyevin anadan olmasının 90 illiyinə həsr edilən konfrans keçirilib






**Oktyabrın 31-də Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun və Kənd Təsərrüfatı Nazirliyi Əkinçilik Elmi-Tədqiqat İnstitutunun birgə təşkilatçılığı ilə "Müasir biologiya və aqrar elmlərdə innovasiyalar və qlobal çağırışlar" mövzusunda gənc alim və tələbələrin konfransı keçirilib.**

AZƏRTAC xəbər verir ki, konfrans akademik Cəlal Əliyevin anadan olmasının 90 illiyinə həsr edilib. Əvvəlcə konfrans iştirakçıları Fəxri xiyabanda görkəmli akademikin əziz xatirəsini yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.

Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunda təşkil olunan konfransda Biologiya və Tibb Elmləri Bölməsinin akademik-katibinin müavini, AMEA-nın müxbir üzvü Zeynal Əkpərov dünya şöhrətli alim Cəlal Əliyevin elmi irsinin öyrənilməsi baxımından konfransın gənc alim və tələbələr üçün əhəmiyyətini qeyd edib. Cəlal Əliyev məktəbinin yetirməsi olduğu üçün qürur hissi keçirdiyini bildirən Z.Əkpərov görkəmli alim böyük şəxsiyyət, gözəl insan və qayğıkeş müəllim kimi yüksək mənəvi keyfiyyətlərindən söz açıb. Qeyd edilib ki, tələbələrinə xüsusi diqqət və qayğı ilə yanaşan Cəlal müəllim elmə həvəs və maraq göstərən gənclərə hər zaman böyük dəstək olub.

İnstitutun direktoru, akademik İradə Hüseynova akademik Cəlal Əliyevin həyat və fəaliyyətindən, Azərbaycan biologiya elminin inkişafında müstəsna xidmətlərindən söz açıb. Ölkəmizdə hər zaman dövlət tərəfindən elmi ictimaiyyətin nümayəndələrinə xüsusi diqqət və qayğı göstərildiyini deyən İ.Hüseynova Prezident İlham Əliyevin "Akademik Cəlal Əliyevin 90 illik yubileyinin keçirilməsi haqqında" 2018-ci il 22 may tarixli Sərəncamını xatırladıb, tədbirin bu mühüm sənədə əsasən keçirildiyini diqqətə çatdırıb.

Qeyd edilib ki, Cəlal Əliyev böyük alim və görkəmli ictimai-siyasi xadim kimi hər zaman gənclərə böyük diqqət göstərib. Akademik ötən əsrin 70-ci illərində ölkənin müxtəlif ali təhsil müəssisələrində kimya, biologiya, fizika, aqronomluq, riyaziyyat və digər ixtisaslar üzrə təhsil alan tələbələri seçərək onları keçmiş SSRİ-nin ən aparıcı universitetlərinə, mərkəzlərinə yüksəkixtisaslı kadr kimi formalaşmağa göndərib.

İ.Hüseynova deyib: "Azərbaycanda biologiya elminin yeni istiqamətlərinin, o cümlədən molekulyar biologiyanın, molekulyar genetikanın, gen və hüceyrə biotexnologiyasının əsası keçən əsrin 70-ci illərində akademik Cəlal Əliyev tərəfindən qoyulub və əsaslı şəkildə inkişaf etdirilib. Bütün tədqiqatlarını multidistiplinar istiqamətlərdə aparan alim riyaziyyatın biologiya elmində tətbiqinə böyük diqqət göstərib. Məhz bu gün də həmin işlərin nəticələri öz bəhrəsini verir. Hazırda Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunda bu istiqamətdə üç laboratoriya fəaliyyət göstərir".

Qeyd olunub ki, həyatını fotosintez prosesinin sirlərinin öyrənilməsinə həsr edən alim bu mürəkkəb və unikal prosesi öyrənməklə dünya elminə mühüm yeniliklər gətirib. Cəlal Əliyev fototənəffüz prosesini öyrənməklə dünya elminə çox qiymətli konsepsiya verib ki, zaman keçdikcə onun dəyəri daha çox bilinəcək. Cəlal müəllim, eyni zamanda, fundamental elmi praktika ilə birləşdirməyi bacaran yeganə alimlərdən idi. Onun həyatı, bütün elmi tədqiqatları dərin fundamental elmə həsr olunmuşdu. Akademik dərin fundamental elmi praktikaya tətbiq etməklə ölkəmiz üçün çox mühüm işlər görüb. Məhz bunun nəticəsidir ki, bu gün Azərbaycanın müxtəlif yerlərində alimin yaratdığı buğda sortları yetişdirilir.

İ.Hüseynova bildirib ki, böyük alimin yaratdığı dünya səviyyəli müasir elmi məktəbin onlarla istedadlı yetirməsi bu gün Azərbaycanda və dünyanın ən nüfuzlu mərkəzlərində tədqiqatlar aparır, yeni elmi nailiyyətləri ilə respublikamızın, elmimizin adını ucaldırlar.

Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzinin baş direktoru Vüqar Babayev, Əkinçilik Elmi-Tədqiqat İnstitutunun direktoru Cavanşir Təlai dünya şöhrətli alimin biologiya elminin inkişafına verdiyi töhfələrdən, kənd təsərrüfatı bitkilərinin, əsasən buğdanın fotosintetik məhsuldarlığının nəzəri əsaslarının öyrənilməsində, fotosintez və fototənəffüs proseslərinin kompleks tədqiqində göstərdiyi xidmətlərdən danışıblar. Bildirilib ki, alimin elmi fəaliyyətinin müəyyən dövrü Əkinçilik İnstitutu ilə bağlı olub. Akademik fundamental tədqiqatları və elmi araşdırmaları ilə ölkəmizdə biologiya və aqrar elmlərin bir sıra yeni istiqamətlərini müəyyənləşdirib və onların aktual problemlərinin həllinə dəyərli töhfələr verib. Onun tədqiqatlarının nəticələri respublikanın iqtisadiyyatının inkişafı və məhsuldarlığın yüksəldilməsi baxımından böyük əhəmiyyət kəsb edib. Cəlal Əliyevin ölkədə bioloji müxtəlifliyin mühafizəsi və səmərəli istifadəsi strategiyasının işlənib hazırlanmasında mühüm xidmətləri olub. Cəlal müəllimin biologiya və aqrar elmlər üzrə 250-dən çox yüksəkixtisaslı mütəxəssisin hazırlanmasında müstəsna rolu olub.

Diqqətə çatdırılıb ki, Kənd Təsərrüfati Nazirliyi Əkinçilik Elmi-Tədqiqat İnstitutunda öz laboratoriyasını yaradan görkəmli alim onu şöbə səviyyəsinə çatdırıb və ömrünün sonunadək həmin şöbəyə rəhbərlik edib. Akademik Cəlal Əliyev yüksək dən keyfiyyətinə və məhsuldarlığa malik, Azərbaycanın buğda əkini sahəsinin böyük hissəsini təşkil edən və yaxşı nəticələr verən buğda sortlarını yaradıb.

Botanika İnstitutunun direktoru, akademik Validə Əlizadə, Əkinçilik İnstitutunun bitki fiziologiyası və biotexnologiya şöbəsinin müdiri Tofiq Allahverdiyev və digər çıxış edənlər akademik Cəlal Əliyevin elmi fəaliyyətindən söz açıblar.

Sonra işini bölmə iclasları ilə davam etdirən konfransda gənc alim və tələbələrin müasir biologiyanın və aqrar elmlərin müxtəlif istiqamətləri üzrə məruzələri dinlənilib.

**AZƏRTAC**

# Kənd təsərrüfatına diqqət ilbəil artır

**(əvvəli 3-cü səhifədə)**

Bundan başqa, cənab Prezidentin 2004-cü il 23 oktyabr tarixli sərəncamları ilə təsdiq olunan "Aqrar bölmədə idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında" və "Aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında", 2008-ci il 25 avqust tarixli sərəncamı ilə təsdiq olunan "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı", 2011-ci il 15 dekabr tarixli sərəncamı ilə təsdiq olunan "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı" və digər hüquqi-normativ sənədlər kənd təsərrüfatının gələcək dinamik inkişafının təməlini təşkil etdi.

2003-2004-cü illərdə qəbul edilən fərman, sərəncam və qərarların, həyata keçirilən ardıcıl, məqsədyönlü tədbirlərin nəticəsi olaraq cəmi 10 il sonra respublikamızda taxıl istehsalı 36,2 faiz, kartof istehsalı 25,9 faiz, tərəvəz istehsalı 16,2 faiz, bostan məhsulları 20 faiz, meyvə 41,6 faiz, üzüm istehsalı 2,3 dəfə artdı. Heyvandarlıq məhsullarının istehsalında, mal-qaranın baş sayının artırılmasında, cins tərkibinin yaxşılaşdırılmasında da ciddi irəliləyişə nail olundu.

Dövlətimizin və onun başçısının kənd təsərrüfatına diqqət və qayğısı sonrakı illərdə də ardıcıl davam etdirildi. Məhz bu yüksək diqqət və qayğının nəticəsidir ki, ötən il kənd təsərrüfatının ümumi məhsullarının dəyəri faktiki qiymətlərlə 6 milyard 580 milyon manat təşkil etmişdir. Bunun 3 milyard 561 milyon manatı heyvandarlıq, 3 milyard 19 milyon manatı isə bitkiçilik məhsullarının payına düşür.

2017-ci ildə payızlıq və yazlıq dənli və dənli paxlalı bitkilərin (qarğıdalısız) 941,5 min hektar əkin sahəsindən 2 milyon 693,2 min ton məhsul götürülmüşdür. Orta hesabla hər hektardan 28,6 sentner məhsul əldə olunmuşdur. Bundan əlavə, 35,7 min hektar sahədə dən üçün qarğıdalı əkilərək yetişdirilmiş və hər hektardan 60,9 sentner qarğıdalı dəni yığılmışdır. Qarğıdalı dəni də nəzərə alınmaqla ölkə üzrə taxıl istehsalı 2,9 milyon tondan çox olmuşdur.

Ötən il 913,9 min ton və ya əvvəlki ilə nisbətən 1,3 faiz çox kartof, 1 milyon 405,6 min ton (10,6 faiz çox) tərəvəz, 438,1 min ton bostan məhsulları toplanıb. Yeri gəlmişkən qeyd edək ki, hektarın orta məhsuldarlığı kartof üzrə 10 sentner, bostan məhsulları üzrə isə 11 sentner artmış, uyğun olaraq 150 və 187 sentner təşkil etmişdir.

2017-ci ildə 15,2 min hektar sahədə dən üçün günəbaxan əkilmiş və sahələrdən 30,6 min ton məhsul (əvvəlki ilə nisbətən 78,1 faiz çox) istehsal olunub. 13,8 min hektar şəkər çuğunduru sahəsindən 422,2 min ton məhsul (22 faiz çox) yığılmışdır. 207,5 min ton "ağ qızıl" toplanmışdır ki, bu da 2016-cı ildəkindən 2,3 dəfə çoxdur.

Kənd təsərrüfatının mühüm qolu olan heyvandarlıq da ötən il dinamik inkişaf etmişdir. 540,5 min ton (əvvəlki ilə nisbətən 3,2 faiz çox) diri çəkidə ət, 2 milyon 24,1 min ton (0,7 faiz çox) süd, 1 milyard 714 milyon ədəd (6,5 faiz çox) yumurta, 245,2 ton (3,5 dəfə çox) barama, 16 min ton yun istehsal olunub. 1 yanvar 2017-ci il tarixə ölkədə 2 milyon 679,3 min baş iribuynuzlu (o cümlədən 1 milyon 289,9 min baş inək və camış), 8 milyon 465,6 min baş xırdabuynuzlu heyvan mövcud olmuşdur.

Kənd təsərrüfatının inkişafındakı bu dinamika bu il də davam etdirilmişdir. Kənd Təsərrüfatı Nazirliyi rəhbərliyinin dəyişdirilməsi, cənab İnam Kərimovun nazir təyin edilməsi, cavan kadrların irəli çəkilməsi, nazirliyin innovativ metodlara üstünlük verməsi aqrar sahənin inkişafına yeni impuls vermişdir. Kənd təsərrüfatı məhsulları yığımı tam yekunlaşmadığından bütövlükdə təsərrüfat ilinin nəticələrini təhlil etmək hələlik mümkün deyildir.

Amma yığımı yekunlaşan və ya bu prosesi başa çatdırmaqda olan sahələr də var. Dövlət Statistika Komitəsi (DSK) xəbər verir ki, bu il oktyabrın 1-dək 1 milyon 51364,8 min hektar payızlıq və yazlıq dənli və dənli paxlalı bitki sahələrinin (qarğıdalısız) 99,5 faizinin məhsulu yığılaraq 3 milyon 49607 min ton taxıl əldə olunmuşdur. Bu, hər hektardan 29,2 sentner məhsul deməkdir. Müqayisə üçün deyək ki, ötən il bu rəqəm 28,6 sentner idi.

DSK xəbər verir ki, oktyabrın 1-dək dən üçün günəbaxan sahəsinin (11565,8 hektar) 99,2 faizinin məhsulu toplanaraq hər hektardan məhsuldarlıq 20,8 sentner olmaqla 24 min tona yaxın günəbaxan, kartof sahəsinin (60 min hektara yaxın) 97,3 faizinin məhsulu toplanaraq hər hektardan məhsuldarlıq 147,9 sentner olmaqla 853 min tona yaxın kartof, tərəvəz sahəsinin (70 min hektara yaxın) 96,4 faizinin məhsulu toplanaraq hər hektardan məhsuldarlıq 194,6 sentner olmaqla 1 milyon 298 min ton tərəvəz, bostan əkini sahələrinin 99,9 faizinin məhsulu toplanaraq hər hektardan məhsuldarlıq 189,5 sentner olmaqla 396 min ton bostan məhsulları istehsal olunub.

Hazırda tarlalarda "ağ qızıl" toplanışı sürətlə davam edir. Oktyabrın 23-dək sahələrdən 158 min ton pambıq yığılıb ki, bu da ötən ilin müvafiq dövründən 40 min ton çoxdur.

Göründüyü kimi, aqrar sahədə çalışanlar ənənəvi Kənd Təsərrüfatı İşçiləri Gününü layiqli əmək göstəriciləri ilə qarşılayırlar. Fürsətdən istifadə edərək əlamətdar bayram münasibətilə aqrar sahənin çoxminli kollektivlərini təbrik edir, onlara işlərində uğurlar arzulayırıq.

**Nəriman CAVADOV,**
**"Respublika".**

# GÜNÜN TƏLƏBLƏRİ SƏVİYYƏSİNDƏ



Aqrar sahənin qarşısında duran əsas vəzifələrdən biri ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasıdır. Bu istiqamətdə həyata keçirilən tədbirlərdə Dövlət Baytarlıq Nəzarəti Xidmətinin rolu əvəzsizdir. Respublikanın qabaqcıl aqrar rayonlarından hesab olunan Goranboy rayonunda da bu sahədə nəzərəçarpacaq uğurlar qazanılmışdır. Bu mövzu ilə bağlı uzun müddət **Goranboy Rayon Baytarlıq İdarəsinə rəhbərlik edən Elsevər Hüseynovla** həmsöhbət olduq. O bildirdi ki, Goranboy Rayon Baytarlıq İdarəsi rayon ərazisində mülkiyyət formasından asılı olmayaraq vətəndaşların istifadəsində olan kənd təsərrüfatı heyvanları və quşları arasında rayonun epizootik durumuna uyğun lazımi müalicə-profilaktiki tədbirləri vaxtlı-vaxtında yerinə yetirir. Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidməti tərəfindən təsdiq edilmiş mövcud plan əsasında heyvanlar arasında yoluxucu xəstəliklərin yayılma təhlükəsinin qarşısının alınması istiqamətində çox ciddi fəaliyyət göstərir. Xidmətin işçiləri günün bütün vaxtlarında mal-qara arasında profilaktik tədbirlər aparırlar. Belə ki, bu ilin 9 ayı ərzində epizootiya əleyhinə tədbirlər mütəşəkkil qaydada keçirilmişdir. İribuynuzlu heyvanlarda vərəm xəstəliyi əleyhinə 3748 müayinə, atlarda manqo xəstəliyinə qarşı 692, toyuqların askaridos xəstəliyinə 502 müayinə aparılmış və müsbət nəticəsini vermişdir. Eyni zamanda müalicə-profilaktika və peyvəndləmə vaxtında keçirilmiş, bu isə öz səmərəliliyini göstərmişdir. Belə ki, xırdabuynuzlu heyvanlar 17470 baş, iribuynuzlu heyvanlar 1950 baş ektoparazitlər xəstəliyinə qarşı çimizdirilmişdir.

Onu xüsusilə qeyd etmək lazımdır ki, vaxtaşırı Respublika Dövlət Baytarlıq Xidmətinin rəisi Bayandur Rzayev bölgələrdə və rayonumuzda fermer və sahibkarlarla görüşlər keçirir, peyvəndləmə tədbirlərinə nəzarətin saxlanması məqsədi ilə baytarlıq baxışı keçirir, heyvanların sağlamlıq durumuna dair aparılan baytarlıq tədbirlərinin keyfiyyətinə, heyvanların baytarlıq-sanitariya qaydalarına uyğun saxlanılması və peyvəndləmələrin əhəmiyyəti barədə söhbət aparır və fermerlərə müvafiq tövsiyələrini verir. Xidmətin işçiləri kəndlərə, qoyun sürüləri olan yataqlara baş çəkir, binalar dezinfeksiya olunur, lazımi profilaktik tədbirlər aparırlar. Vaxtaşırı monitorinqlər və seminar-məşğələlərin keçirilməsi əhalinin və fermerlərin bu sahədə maariflənməsinə böyük təkan verir. Onu xüsusilə qeyd etmək lazımdır ki, bu tədbirlərin müvəffəqiyyətlə yerinə yetirilməsində rayon icra hakimiyyətinin və bələdiyyələrin köməyi əvəzsizdir. Bu qurumlar əhalinin keyfiyyətli və sağlam ərzaqla təmin olunması üçün müvafiq tədbirlərdə fəallıq göstərirlər. Mal-qara müasir tələblərə uyğun yerlərdə kəsilir, yoxlandıqdan sonra satışa buraxılır.

Sonda idarə rəhbəri əminliklə bildirdi ki, rayonda yoluxucu xəstəliklərə görə epizootik sabitliyin qorunub saxlanması istiqamətində profilaktik və təşkilati tədbirləri mütəmadi olaraq davam etdirib bu sahədə yeni uğurlar qazanacaqlar.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# ŞİRVAN: ABADLIQ İŞLƏRİNİN HƏCMİ ARTIR, İNFRASTRUKTUR YENİLƏNİR





**Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı Mərdan Camalov Şirvan şəhərinin 2018-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələr barədə məruzə etdi. Natiq göstərdi ki, son illər ölkədə aparılan uğurlu islahatlar iqtisadiyyatda əsaslı keyfiyyət dəyişikliklərinə səbəb olmuş, dinamik inkişaf təmin edilmişdir. Bu inkişafda Şirvan şəhərinin də özünəməxsus yeri var. İlin 9 ayı ərzində neftçıxarma, enerji istehsalı, şəhər sənayesinin digər sahələrində uğurlu göstəricilər diqqətəlayiqdir.**

İstehsal olunmuş sənaye məhsulunun 35,4 faizi mədənçıxarma sahəsində, 13,2 faizi emal sahəsində, 50,7 faizi elektrik enerjisi, qaz və buxar istehsalı sahəsində, 0,7 faizi isə su təchizatı sahəsində əldə olunmuşdur.

2018-ci ilin 9 ayında 15819,7 min manat məbləğində məhsul tədarük olunmuş, işçilərin orta aylıq əməkhaqqı 490,47 manat təşkil etmişdir. Əhalinin məşğulluğunun təmin olunması, yeni iş yerlərinin açılması sayəsində şəhərdə sakinlərə normal həyat şəraiti yaradılmış, elektrik enerjisi, qaz təchizatında uzun illər boyu davam edən çətinliklər tamamilə aradan qaldırılmışdır.

Natiq qeyd etdi ki, Dövlət Proqramının icrası ilə bağlı şəhərin su təchizatının və kanalizasiya sisteminin yaxşılaşdırılması istiqamətində işlərə başlanılmışdır. Hazırda şəhər üzrə 24600 metr müxtəlif diametrli mərkəzi və məhəllədaxili yeni su xətləri çəkilmişdir. Görülən işlər nəticəsində 45 ədəd çoxmənzilli yaşayış binalarının su xətləri yenilənmiş, sayğaclar quraşdırılıb istifadəyə verilmişdir. Şəhərin H.Əliyev prospekti boyunca diametri 1000 millimetrlik 1400 metr yeni mərkəzi kanalizasiya xətti çəklmiş, qalan hissəsinin çəklişi davam etdirilir. Şəhərin Xəqani küçəsində diametri 600 millimetrlik 285 metr, L.İbrahimov küçəsində diametri 600 millimetrlik 65 metr mərkəzi kanalizasiya xətləri istismara yararsız olduğundan yeni kanalizasiya xətti ilə əvəz olunaraq istifadəyə verilmişdir. Şəhərin H.Z.Tağıyev küçəsində 1a və 2a saylı binaların zirzəmisində kanalizasiya xətləri əsaslı təmir edilmişdir. Bu müddət ərzində əhali sektoruna 2708 ədəd su ölçən cihazları quraşdırılmışdır. Hazırda "Azərsu" ASC tərəfindən şəhərin su təchizatının və kanalizasiya sisteminin yaxşılaşdırılması istiqamətində işlər davam etdirilir.

Şəhər əhalisinin rabitə və internet xidmətinə olan tələbatın ödənilməsi məqsədilə Dövlət Proqramına uyğun "Kənd" evləri yeni yaşayış massivində sakinlərin Genişzolaqlı internet xidmətinə olan tələbatını nəzərə alaraq 1040 nömrəlik EATS və 1 ədəd 128 portluq "Huawei" markalı DSLAM istifadəyə verilmişdir.

Şagirdlərin vətənpərvərlik ruhunda tərbiyə olunması məqsədilə görülən işlər gücləndirilmiş, əhalinin sağlamlığının qorunması məqsədilə sakinlərin tibbi müayinədən keçirilməsinə ciddi nəzarət olunmuş, şəhid, aztəminatlı və sosial müdafiəyə ehtiyacı olan ailələr daim diqqətdə saxlanılmış, idmanın kütləviliyinin artırılması üçün müvafiq addımlar atılmışdır.

İcra başçısı daha sonra qeyd etdi ki, Şirvan Şəhər Məşğulluq Mərkəzi işsiz və işaxtaran vətəndaşları münasib iş yerləri ilə təmin etmək məqsədilə 2018-ci ilin 9 ayı ərzində Mərkəzə müraciət etmiş 976 nəfər işaxtaranla intensiv əlaqə saxlayır. Mərkəzdə ümumi qeydiyyatda olan işaxtaran vətəndaşlardan 927 nəfəri işlə təmin olunmuşdur ki, onlardan da 510 nəfəri yeni yaradılmış iş yerləri olmuşdur. Hesabat dövründə 13 nəfər işaxtaran vətəndaşa işsizlikdən sığorta ödənişi təyin edilmişdir. Hesabat dövrü ərzində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həyata keçirilən "Özünəməşğulluq proqramı" Şirvan şəhərində də uğurla davam etdirilir. Belə ki, Mərkəzə müraciət etmiş işsiz və işaxtaran vətəndaşlardan 60 nəfəri öz ailə biznesini yaratmaları üçün Proqrama cəlb edilmişdir. Təlimdə iştirak edən vətəndaşlardan 56 nəfəri öz biznes planlarını müvəffəqiyyətlə müdafiə etmişdir ki, onların da aktivləri yaxın günlərdə veriləcəkdir.

Əvvəlki illərdə olduğu kimi, 2018-ci ilin 9 ayı ərzində şəhər ərazisində tikinti-quraşdırma və abadlıq işləri davam etdirilmişdir. Şirvan şəhərində qarşıya qoyulmuş məsələlərin həlli istiqamətində uğurlu addımlar atılmış, abadlıq və yenidənqurma işlərinin həcmi genişləndirilmişdir.

Dövlət Proqramına uyğun Şirvan şəhər "Kürkörpü" yaşayış massivində 50 şagird yerlik yeni modul tipli məktəb tikilib istifadəyə verilmişdir.

Şəhər 5 nömrəli ümumi orta məktəbin binası qəzalı vəziyyətə düşdüyü üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 22 yanvar 2018-ci il tarixli sərəncamına əsasən dövlət əsaslı vəsait qoyuluşu hesabına 432 şagird yerlik ikimərtəbəli yeni binanın tikintisinə başlanmışdır.

5 saylı Ərazi Vergilər İdarəsi yeni inzibati binasının tikintisi davam etdirilir.

2010-cu ildə Kür və Araz çaylarında suyun səviyyəsinin qalxması nəticəsində baş vermiş təbii fəlakət zamanı şəhər ərazisində fərdi yaşayış evlərinə dəymiş ziyanla bağlı Fövqəladə Hallar Nazirliyi tərəfindən 7 fərdi evin tikintisi tamamlanmaq üzrədir.

Yeni Azərbaycan Partiyasının Şirvan şəhər təşkilatı üçün şəhərin Naxçıvan küçəsində yeni inzibati binanın tikintisinə başlanılmışdır. Şəhərin küçə və meydançalarında geniş həcmdə yaşıllaşdırma işləri aparılmış və abadlıq-təmizlik tədbirləri davam etdirilməkdədir.

Şirvan Şəhər İcra Hakimiyyəti 2018-ci ilin 9 ayı ərzində şəhərin sosial-iqtisadi inkişafının təmin olunması istiqamətində bir sıra tədbirlər həyata keçirmiş, nəticədə əhalinin sosial rifah halının yaxşılaşdırılması, əhalinin alıcılıq qabiliyyətinin yüksəlməsi meyilləri artmaqda davam etmişdir.

Şəhərin sosial-iqtisadi inkişafının təmin edilməsi istiqamətində həyata keçirilən bütün tədbirlər həmişə olduğu kimi, bundan sonra da daim diqqət mərkəzində saxlanılacaqdır.

**Tofiq HÜSEYN,**
**"Respublika".**

# KƏLBƏCƏR: BÖYÜK QAYĞIDAN DOĞAN DİNAMİK İNKİŞAF



Kəlbəcər Rayon İcra Hakimiyyətinin, YAP rayon təşkilatı nümayəndələrinin, hüquq-mühafizə orqanlarının, təhsil, səhiyyə, mədəniyyət və xidmət sahələrinin rəhbərlərinin iştirakı ilə 2018-ci ilin 9 ayının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş iclas keçirilmişdir. **Kəlbəcər Rayon İcra Hakimiyyətinin başçısı Aqil Məmmədov** iştirakçıları salamlayaraq respublikada gedən davamlı inkişafdan, aparılan abadlıq-quruculuq işlərindən və yeni layihələrdən ətraflı söhbət açaraq qeyd etdi ki, 2018-ci ilin doqquz ayında Kəlbəcər rayonunda kifayət qədər mühüm tədbirlər həyata keçirilmişdir. Sosial-iqtisadi inkişafın təmin edilməsi, yeni iş yerlərinin açılması, sahibkarlığın dəstəklənməsi, onlar üçün lazımi şəraitin yaradılması istiqamətində bir sıra işlər görülmüşdür. Yevlax şəhəri məcburi köçkün qəsəbəsində 10 ədəd hündürmərtəbəli yaşayış binasının, həmin qəsəbədə fəaliyyət göstərən Kəlbəcər rayon 30 saylı tam orta məktəbin və 3 saylı uşaq bağçasının istilik və su xətlərinin 4 min metr su boruları dəyişdirilərək yenisi ilə əvəz olunmuşdur. Yevlax rayonunun Qoyunbinəsi kəndində yaşayan 70-ə yaxın məcburi köçkün ailəsinə xidmət göstərən uzunluğu 500 metr olan məhəllədaxili avtomobil yolu əsaslı təmir edilmiş, su xətlərinin istifadəyə yararsız hissələri dəyişdirilərək yenisi ilə əvəz olunmuşdur. Gəncə şəhəri Avtozavod qəsəbəsində yerləşən keçmiş Aqrotikinti idarəsinin inzibati binasında müvəqqəti məskunlaşmış 27 ailənin yaşadıqları binanın dam örtüyü dəyişdirilərək yenisi ilə əvəz olunmuşdur. Gəncə şəhəri 1500 ailəlik yeni qəsəbənin yuxarı hissəsində modul tipli xeyir-şər yerinin quraşdırılması Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun mikrolayihəsinə salınmasına nail olunmuşdur.

Azərbaycan Dövlət Aqrar Universitetinin 6 saylı yataqxanasında yaşayan məcburi köçkün ailələrinin içməli suya olan tələbatlarını yaxşılaşdırmaq məqsədilə binanın həyətinə yeni su xətti çəkilərək 2 ədəd bulaq quraşdırılmışdır. Həmin yataqxananın ətrafında fəaliyyət göstərən Kəlbəcər rayon 69 saylı tam orta məktəbin ətrafına uzunluğu 160 metr olan dəmir konstruksiyadan ibarət tor çəkilmişdir. Yataqxananın ətrafında müvəqqəti məskunlaşmış 40-a yaxın məcburi köçkün ailəsinin təbii qaza olan tələbatlarını ödəmək məqsədilə tərəfimizdən 450 metr uzunluğunda 76 mm-lik qaz boruları alınmış və hazırda qaz çəkilişinə başlanılmışdır. Gəncə şəhəri 1500 ailəlik yeni qəsəbədə, Goranboy rayonunun Veysli, Samux rayonunun Alıuşağı kəndlərində və Göygöl rayonunun Xasabağı qəsəbəsində fəaliyyət göstərən subartezian quyularının nasosları isə dəyişdirilərək yenisi ilə əvəz olunmuşdur. Daşkəsən rayonunun Çovdar kəndində müvəqqəti məskunlaşmış məcburi köçkün ailələrinin içməli suya olan tələbatlarının ödənilməsi məqsədilə diametri 40 mm olan 600 metr plastik su borusu alınaraq vətəndaşların istifadəsinə verilmişdir. Göygöl rayonunun Murovdağ qəsəbsində, Çaykənd, Göyçəkənd, Yeni Zod və Qarabulaq kəndlərində müvəqqəti məskunlaşmış 1000-dən çox məcburi köçkün ailəsinə humanitar yardımlar göstərilmişdir. Şəxsi ərizələri əsasında 47 məcburi köçkün ailəsinə maddi köməklik göstərilmişdir.

Gənc nəslin təlim-tərbiyəsi, təhsil islahatlarının həyata keçirilməsi və məcburi köçkün uşaqların təhsilə cəlb edilməsi məqsədilə 94-ü tam orta, 15-i isə ümumi orta məktəblərdən ibarət olmaqla 2017-2018-ci tədris ilində rayon üzrə 109 ümumtəhsil məktəbi təşkil olunmuşdur. Həmin məktəblərdə 14773 nəfər şagird təhsilə cəlb edilmişdir ki, onlardan da IX sinif üzrə 1109 nəfər, XI sinif üzrə 1202 nəfər şagird olmuşdur.

Hesabat dövrü ərzində 289 nəfərə stasionar, 16801 nəfərə isə ambulator qaydada xidmət göstərilmiş, 26 cərrahi əməliyyat həyata keçirilmişdir. Çarpayı günü 4536-dır. Ölkə Prezidenti cənab İlham Əliyevin tapşırığına uyğun hesabat dövrü ərzində respublika üzrə 47652 nəfər, rayon mərkəzi xəstəxanası üzrə isə 17994 nəfər pulsuz tibbi müayinədən keçirilmişdir.

Rayon İcra Hakimiyyəti başçısı yanında Şuranın 2018-ci il üçün perspektiv İş Planına uyğun olaraq hesabat dövründə Şuranın 20 iclası keçirilmişdir. İclaslarda 7 rəhbər işçinin hesabatı dinlənilmiş, 8 nümayəndəliyin fəaliyyəti təhlil olunmuş və müvafiq qərarlar qəbul edilərək icrası nəzarətə götürülmüşdür. 2018-ci ilin doqquz ayı ərzində Kəlbəcər Rayon İcra Hakimiyyəti başçısı aparatına 255 müraciət daxil olmuşdur.

Əvvəlcədən təsdiq edilmiş aylıq qrafikə uyğun olaraq Kəlbəcər Rayon İcra Hakimiyyəti başçısı tərəfindən respublikanın 15 şəhər və rayonunun 27 yaşayış məntəqəsində vətəndaşlarla səyyar qəbul-görüşlər keçirilmiş, 1842 nəfər qəbul edilmişdir ki, bu da ötən ilin müvafiq dövrü ilə (1564) müqayisədə 278 nəfər çoxdur. Səyyar qəbulda iştirak edən vətəndaşlar tərəfindən müxtəlif məzmunlu 61 tələb-təklif səsləndirilmişdir. Onlardan 25-i müsbət həll edilmiş, o cümlədən 13 məsələ yerində həll olunmuş, 14-nün icrası ilə bağlı olaraq mərkəzi və yerli icra orqanları qarşısında məsələlər qaldırılmış, 16 məsələyə dair vətəndaşlara müvafiq qaydada izahatlar verilmişdir. Əvvəlcədən təsdiq edilmiş illik qrafikə uyğun 2018-ci ilin doqquz ayı ərzində Kəlbəcər Rayon İcra Hakimiyyəti başçısı aparatında 638 nəfər vətəndaş qəbul edilmişdir. Səyyari qəbul-görüşlərdə qaldırılan məsələlərin həlli istiqamətində ardıcıl aparılmış məqsədyönlü işlərin nəticəsidir ki, 2017-ci ilin ötən dövrü ilə (900 nəfər) müqayisədə RİH başçısı aparatına qəbula gələnlərin sayında 262 nəfər azalma müşahidə olunmuşdur. Çıxışının sonunda rayon rəhbəri, qədirbilən Kəlbəcər rayon əhalisi adından göstərilən sonsuz diqqət və qayğıya görə ölkə Prezidenti cənab İlham Əliyevə minnətdarlığını ifadə edərək tam əmiliklə bildirdi ki, bütün qüvvələr tam səfərbər olunaraq qarşıya qoyulan bütün vəzifələr layiqincə və vaxtından əvvəl yerinə yetiriləcəkdir. Məruzə ətrafında çıxış edənlər ölkədə gedən davamlı inkişafdan və həyata keçirilən uğurlu təhsil, səhiyyə islahatlarından, sahibkarlığın inkişafından, qəbul olunmuş Dövlət proqramlarının uğurla icra olunması nəticəsində ölkənin günü-gündən mütərəqqi və sivil dünyaya inteqrasiya etməsindən danışdılar.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# Siyəzən: iqtisadiyyatda müsbət nəticələr artıb

**Cari ilin ötən 9 ayında Siyəzən rayonunda da xeyli iş görülmüşdür. Rayonun iqtisadiyyatında müsbət irəliləyişlər baş vermiş, bir sıra tikinti-quruculuq işləri həyata keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş rayon icra hakimiyyətinin iclasında bu barədə ətraflı söhbət açılmışdır.**



Yığıncaqda hesabat məruzəsi ilə çıxış edən **rayon icra hakimiyyətinin başçısı Asif Hüseynov** demişdir ki, 2018-ci ilin ötən doqquz ayında Siyəzən rayonunun iqtisadiyyatı uğurla inkişaf etmiş, fəaliyyət göstərən müəssisə, təşkilat və fərdi sahibkarlar tərəfindən iqtisadiyyatın əsas sahələri üzrə ümumi məhsul buraxılışı 160 mln. 519,0 min manata çataraq əvvəlki ilin eyni dövrü ilə müqayisədə 18,4 faiz artmışdır. Ümumi məhsul buraxılışının 49,6 faizi kənd təsərrüfatının, 21,6 faizi tikintinin, 14,7 faizi sənayenin, 13,2 faizi ticarətin, 0,9 faizi nəqliyyat və rabitə sektorunun payına düşmüşdür. Ümumi məhsul istehsalında qeyri-dövlət sektorunun xüsusi çəkisi 73,7 faiz təşkil etmişdir. Əhalinin pul gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 6,3 faiz, adambaşına düşən məbləğ isə 5,1 faiz artmışdır.

2018-ci ilin yanvar-sentyabr aylarında rayonda sənaye subyektləri tərəfindən istehsal edilmiş və göstərilmiş xidmətlər əvvəlki ilin eyni dövrü ilə müqayisədə 15,4 faiz çoxdur. Ümumi istehsalın 73,4 faizi sənaye malları istehsalından, 26,6 faizi sənaye xarakterli xidmətlərdən ibarət olmuşdur. Məhsul istehsalı və xidmətlərin ümumi həcminin 36,8 faizi dövlət mülkiyyətinin, 63,2 faizi xüsusi mülkiyyətin payına düşmüşdür.

Emal sənayesində istehsal edilmiş məhsullar əvvəlki ilin eyni dövrü ilə müqayisədə 21,7 faiz çoxdur. Əvvəlki dövrlərdə yaranmış ehtiyatlar da nəzərə alınmaqla istehsalçı müəssisələrin anbarlarında oktyabrın 1-i vəziyyətinə 578,6 min manatlıq hazır məhsul qalmışdır.

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı bölməsində sənaye xarakterli xidmətlərin həcmi əvvəlki ilin eyni dövrü ilə müqayisədə 11,2 faiz artmışdır. İlin əvvəlindən istehlakçılara 52,4 milyon kvt/saat elektrik enerjisi, 18,4 milyon kubmetr qaz, 0,5 min Qkal istilik enerjisi, 962,6 min kubmetr su paylanmış, 147,9 min manatlıq istifadə üçün yararlı olmayan təhlükəsiz tullantılar yığılaraq məhv edilmişdir. 2018-ci ilin yanvar-sentyabr aylarında rayonda bütün maliyyə mənbələri hesabına 18 milyon 841,9 min manatlıq əsas fondlar istifadəyə verilmişdir. İstifadəyə verilmiş əsas fondların 82,5 faizini dövlət mülkiyyəti, 17,5 faizini qeyri-dövlət mülkiyyəti təşkil etmişdir. İlin əvvəlindən ümumi sahəsi 7027,0 kvadratmetr, o cümlədən yaşayış sahəsi 3124,0 kvadratmetr olan 53 fərdi yaşayış evi istifadəyə verilmişdir. Cari ilin əvvəlindən rayonda bütün mülkiyyət növləri üzrə, o cümlədən əhalinin şəxsi vəsaiti də daxil olmaqla iqtisadiyyatın və sosial sahələrin inkişafına yönəldilmiş investisiya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 63,0 faiz çoxdur. İstifadə edilmiş investisiyanın 62,3 faizi tikinti-quraşdırma işlərinə sərf edilmişdir.

Ümumi investisiyanın 37,8 faizi Dövlət Neft Şirkəti tərəfindən mədənçıxarma sənayesinin inkişafına, 19,8 faizi "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən rayonun elektrik enerjisi təminatının yaxşılaşdırılmasına, 19,7 faizi milli su təshizatı və kanalizasiya xidmətləri üzrə ikinsi layihənin həyata keçirilməsinə, 13,6 faizi Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən avtomobil yollarının tikintisinə, 1,5 faizi Samur-Abşeron suvarma sisteminin yenidən qurulmasına, 2,8 faizi əhalinin şəxsi vəsaiti ilə fərdi yaşayış evlərinin tikintisinə, 4,8 faizi sair tikinti işlərinə sərf edilmişdir.

Rayonda kənd təsərrüfatı məhsullarının istehsalı da xeyli artmışdır. 2018-ci ilin ötən doqquz ayında rayon üzrə 79 milyon 688,0 min manatlıq kənd təsərrüfatı məhsulları istehsal edilmişdir ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 7,8 faiz çoxdur.

Oktyabr ayının 1-i vəziyyətinə sahələrdən 11222,0 ton taxıl, 82,0 ton dən üçün qarğıdalı, 52,5 ton paxlalı bitkilər, 31,0 ton dən üçün günəbaxan, 378,0 ton kartof, 1591,0 ton tərəvəz, 970,0 ton bostan bitkiləri, 1584,0 ton meyvə, 342 ton üzüm yığılmışdır. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə taxıl istehsalı 12,7 faiz artmışdır. Oktyabr ayının 1-i vəziyyətinə əvvəlki ilin eyni dövrü ilə müqayisədə ət istehsalı 15,4 faiz, o cümlədən quş əti istehsalı 16,7 faiz, süd istehsalı 0,1 faiz, yumurta istehsalı 0,5 faiz artmışdır.

2018-ci ilin yanvar-sentyabr aylarında rayonda 442 yeni, o cümlədən 290 daimi, 152 müddətli iş yeri açılmışdır. Daimi iş yerlərindən 5 iş yeri yeni yaradılmış müəssisə və təşkilatlarda, 285 iş yeri isə fiziki şəxslər tərəfindən yaradılmışdır. Rayon iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq əməkhaqqı 395,6 manat olmaqla əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4,2 faiz artmışdır. 2018-ci ilin III rübündə rayon büdcəsinin gəlirləri 2476,7 min manat, xərcləri 2163,5 min manat təşkil etmişdir. Büdcə gəlirlərinin 2476,7 min manatını və ya 100 faizini yerli gəlirlər təşkil etmişdir.

Yığıncaqda Siyəzən Rayon Məşğulluq Mərkəzinin direktoru Etibar Heydərov, Telekommunikasiya qovşağının rəisi Rafiq Kəbirov, Siyəzən rayonu üzrə Maliyyə Şöbəsinin rəis əvəzi Rəsul Əlibəyov hesabat dövründə rəhbərlik etdikləri sahələr üzrə görülmüş işlər barədə çıxış etmişlər.

**Ziyafəddin BAYRAMOV,**
**"Respublika".**

# Oğuzda turizmin inkişafı üçün yaxşı şərait



Yaşı bəlkə də özünü üzük qaşı kimi dövrəyə alan dağların, qartal qonan sıldırım qayaların sirdaşıdır. Tarixi çox-çox qədimdir. Kəndin doxsan, yüz yaşlıları ilə söhbətimdən, tarixi ilə bağlı bəzi mənbələrdən aldığım məlumatlardan aydın olur ki, sahilindən keçən Daşağıl çayı bu yaşayış ünvanını keçmişdə çox ciddi imtahanlar qarşısında qoymuşdur.

İndi o çətinliklərdən, demək olar, əsər-əlamət qalmayıb. İllərin sınağından uğurla çıxan kənd inkişaf etmiş, abadlaşmışdır. Keçmiş sovetlər birliyi dönəmində, kolxoz, sovxoz təsərrüfatının mövcudluğu vaxtında bu kənddəki kolxoz rayonun ən qabaqcıl, öndə gedən təsərrüfatı olub. Onun "Lenin" ordenli Əbülfət Mahmudov kimi sədri, sinələrini müxtəlif orden və medallar bəzəyən Əlipaşa Alxasov, Həsən Soltanəliyev kimi çobanları, Hüseyn Hüseynov kimi kadrları, Fərzəli Mustafayev kimi veteranları olub. Onların adları həmişə rayonun hörmətli adamları kimi çəkilib. İndi ömrünün ahıllıq çağını yaşayan Mehralı Səmədov o günləri yaxşı xatırlatmaqla bu günün üstünlüklərindən də iftixarla söhbət açır. Deyir ki, bünövrə möhkəm olmasaydı indiki inkişaf da əldə edilməzdi. Mehralı Səmədov söhbətində onu da xatırlatdı ki, Baş Daşağıl təkcə təsərrüfat qabaqcıllığı ilə yox, öz ziyalıları ilə də tanınıb. Bu gün kəndə rəhbərlik edən bələdiyyə sədri və icra nümayəndəsi də bu fikri təsdiqlədilər. **Bələdiyyə sədri Maarif Şirinov** söhbətin davamında dedi:

—Bəli, kəndimizin adlarını çəkdiyimiz təsərrüfat adamları ilə yanaşı, Möhüddin Əsədov, Məhəmməd Əhmədov, Mənsur Cabbarov, Oqtay Salamov kimi elm adamları, Baba Cabbarov, Camal Məmmədov, Vasif Məmmədov və onlarla başqaları kimi ziyalıları ilə də fəxr etməyə haqqı var. Məsələn, Möhüddin Əsədov uzun illər Bakı şəhər səhiyyəsinə rəhbərlik edib. Bax, belə bir kəndin güclü iqtisadiyyatı o vaxtı da olub, bu gün




də var. Təsərrüfat sahələrimiz kəndimizdən 30-35 kilometr aralıda olan Malıx sahəsindədir. Artıq bura kiçik də olsa yaşayış məntəqəsidir. Özünün məktəbi, ticarət obyekti və sairi var.

Ulu keçmişi olan Baş Daşağılın çox zəngin maddi-mənəvi tarixi var. Bələdiyyə sədri söhbət əsnasında dedi ki, Daşağıl çayın sahilindəki Karvan adlanan yer dövrünə görə ticarət karvanının dayandığı ünvan olub. Axı, kənd o vaxtın ticarət yolunun üstündə yerləşib. Başqa yerlərdən gələn ticarət karvanları adı çəkilən bu ünvanda dayanandan sonra şimaldan Dağıstana, eləcə də Azərbaycanın cənubuna doğru istiqamət götürərmiş. Bu kənddə o dövrdə ərəb və fars dilləri öyrənilərmiş. Bunun üçün xüsusi məktəb fəaliyyət göstərib. Baş Daşağılın 23 hacısı, 2 məscidi olub. Hacıların da hamısı bir-birindən imkanlı, əl tutan kimi tanınıb.

Yaşlıların söhbətlərindən, bələdiyyə sədrinin təsdiqləyici fikirlərindən öyrəndik ki, Baş Daşağılda lap qədimdən kalağayı, xalça toxuyan, kirəc istehsal edən kiçik sexlər olub. Sonralar onların avadanlıqlarını aparıblar. Kəlağayı sexinin çənləri deyilənə görə bu gün də Şəki İpək Kombinatında saxlanılır. Tarixi özündə yaşadan, bu gündən sabaha aparan tarixi abidələr də Baş Daşağılda çoxdur. Dar küçələri olan kənddə keçmişin sənətkarlarının əl işlərini özündə saxlayan bir neçə yaşayış evi bu gün də qalır və istifadə olunur. Onların divarlarında işlənən bəzi bəzəklər, naxışlar Baş Daşağılda sənətkarlığın köklərinin uzaq keçmişlə bağlılığından soraq verir. Xalçaçılığın ənənəsini yaxın keçmişdə də, elə indinin özündə də baş daşağıllılar göz bəbəyi kimi qoruyub saxlayıblar. Bir faktı qeyd edək ki, toxuduğu xalçaların üzərindəki məharətli əl işləri, daha doğrusu rəssamlıq məharəti ilə Azərbaycanın, eləcə də keçmiş SSRİ-nin müvafiq qurumlarının diqqətini cəlb etdiyinə görə Baş Daşağıl kəndinin sakini xalça toxuyan Mərmər Dəftəzanova SSRİ Rəssamlar İttifaqına üzv seçilmişdi.

Zəngin tarix, əsrarəngiz təbiət, sənət, sənətkara hörmət, ehtiram, məhəbbət Baş Daşağılda indi də var. Uğan kimi tarixi abidə, Düzən bulağın yanındakı şəlalə, "Göy bayır", "Qısır Dağ", "Bədəl", "Qazan Uçan" kimi bir-birindən ecazkar gözəlliyə malik yaylaqlar, diş göynədən çoxlu sayda buz bulaqlar, üstəgəl böyük-böyük əraziləri əhatə edən yamyaşıl düzənlər, səfalı "Göbürbulağı" və digər çoxlu sayda gözəl mənzərələr Baş Daşağılın turizm potensialının zənginliyindən soraq gətirir. Yaxın vaxtlara kimi bu sorağa gəlmək istəyənlər onlarla, yüzlərlə olub. Amma Oğuz-Şəki magistralından sonra Baş Daşağıla kimi olan 12 kilometrlik yolun gediş-gəliş üçün əlverişsiz olması çoxlarını bu arzusuna qovuşmağa imkan verməyib. Suyun bollaşan, çayların coşub daşan vaxtı Daşağıl çayını keçmək çox çətin idi. Amma indi bu problemlər tam həll olunub. Məcrasından çıxıb daşqınlar yaradan çayın üstündən müasir standartlara cavab verən uzun körpü tikilib, çayın sahili boyunca beton bənd vurulub. Nəhayət, lap bu yaxınlarda kəndin içərisi də daxil olmaqla Oğuz-Şəki magistralına kimi keyfiyyətli asfalt yol çəkilib. Deməli, təbiətin səfalı guşəsinə, Baş Daşağıla getmək, onun tarixi abidələrinin, yamyaşıl düzənlərinin, bir-birindən mənzərəli yaylaqlarının seyrinə çıxmaq üçün dövlətin yaxından dəstəyi və qayğısı ilə hər cür şərait yaradılıb.

Bax, bu qayğı Baş Daşağılda təsərrüfat həyatının da canlanmasına böyük dəstək olub. Onlar ata-baba təsərrüfat sahəsi olan heyvandarlığa, xüsusən də qoyunçuluğa böyük həvəslə münasibət bəsləyirlər. Kənddə 3 min baş qoyun, 930 baş mal-qara olması, yüz hektarlarla arpa, buğda, bostan-tərəvəz əkilməsi hər il tonlarla məhsul istehsal edilməsi faktları da bunu diktə edir. Vaxtilə bəzi imkansızlıqlardan, şəraitsizlikdən kənddən uzaqlaşanlar bu gün yenidən kəndə qayıdırlar. Artıq görürlər ki, bolluğa gedən yol torpağa qayıdışdan başlanır.

**Rasim AMANOV,**
**"Respublika".**

# Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr edilən "Son iclas" filminin Londonda təqdimatı olub

**Böyük Britaniyanın və dünyanın ən nüfuzlu mədəniyyət mərkəzlərindən biri olan Britaniya Kino və Televiziya Sənətləri Akademiyasında "Son iclas" bədii-sənədli filminin təqdimatı olub.**

Qeyd edək ki, Heydər Əliyev Fondunun dəstəyi və "BP Azerbaijan" şirkətinin sponsorluğu ilə hazırlanan filmin baş prodüseri Bakı Media Mərkəzinin prezidenti Arzu Əliyevadır.

AZƏRTAC xəbər verir ki, Londonda təşkil olunan təqdimatda çıxış edən Azərbaycanın Böyük Britaniyadakı səfirliyinin müşaviri Rəşad Vahabzadə Azərbaycan Xalq Cümhuriyyətinin tarixi və mövcud olduğu 23 ay ərzində qazandığı nailiyyətlər barədə danışıb.

"BP Azerbaijan" şirkətinin əlaqələr, xarici işlər və strategiya üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli "Son iclas" filmi haqqında danışıb. O, BP şirkətinin bu filmin ərsəyə gəlməsində iştirakından qürur duyduqlarını bildirib.

Ekran əsərində Cümhuriyyət qurucularının müstəqilliyimizin düşmənlərinə - istər işğalçı ordu, istərsə də bu ordunun daxili havadarlarına qarşı son anadək apardıqları qeyri-bərabər və ümidsiz, lakin dönməz və qətiyyətli mübarizəsi əks olunur. Bu mübarizə faciə ilə başa çatsa da, onun Azərbaycanın istiqlal tarixinin şərəfli bir səhifəsi olduğu vurğulanır. Filmdə, həmçinin Azərbaycan Xalq Cümhuriyyətinin bu şərəfli tarixinin və faciəli taleyinin Azərbaycanın yenidən müstəqilliyə qovuşmasına böyük örnək olduğu ön plana çəkilir.

Ekran əsəri tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb.

Təqdimat mərasiminin iştirakçısı Bob Batler filmlə bağlı təəssüratlarını AZƏRTAC-ın müxbiri ilə bölüşərək deyib: "Filmi izlədikdən sonra Azərbaycan tarixi haqqında çox maraqlı faktlar öyrəndim. Bu film yüksək səviyyədə çəkilib, zövq aldım".

Mərasimin digər iştirakçısı Nikolas Sauzvel bildirib: "Əla ekran əsəri izlədik,




aktyorların oyununu xüsusi qeyd etmək istəyirəm. Bu, tamaşaçıya Azərbaycanın tarixi haqqında məlumat vermək baxımından əla filmdir. Yüz il əvvəl Azərbaycanda qadınlara seçki hüququ verilib. Bu, hətta Böyük Britaniyadan da əvvəl olub. Azərbaycanda olmamışam, amma ölkəniz haqqında təsəvvürlərim çox müsbətdir. Tezliklə oraya səfər etməyi planlaşdırıram".

Antropoloq alim Tamara Draqadze qeyd edib: "Filmdən zövq aldım. Peşəkar bir sənət əsəri izlədim. Aktyorların oyunu, səhnə quruluşu, hər şey əla idi. Arxiv materiallarından istifadə edilməsi filmin belə gözəl alınmasına səbəb olub".

1918-ci il mayın 28-də müsəlman Şərqində ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin qurulması xalqımızın həyatına şanlı və tarixi hadisə kimi daxil olub. Cəmi 23 ay yaşayaraq istismar altında olan bir ölkəni Şərqin ilk və ən demokratik respublikasına çevirmiş Cümhuriyyət Azərbaycan xalqının milli qürur mənbələrindən biridir.

Prezident İlham Əliyevin Sərəncamı ilə 2018-ci il "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olunub. Cümhuriyyətin 100 illiyi münasibətilə həm ölkədə, həm də xaricdə silsilə tədbirlər keçirilib. Bakı Media Mərkəzi də Azərbaycanın bu şanlı tarixinə töhfə vermək üçün "Son iclas" bədii-sənədli filmini ərsəyə gətirib. Film Azərbaycan Xalq Cümhuriyyətinin keşməkeşli tarixinin son günlərinə işıq salır və hökumətin öz son qərarını hansı çətin şəraitdə verdiyini əks etdirir.

"Son iclas" filminin ilk təqdimatı mayın 25-də Bakıda Heydər Əliyev Mərkəzində olub.

AZƏRTAC

# Ağdam sakinləri diqqət və qayğıdan razılıq edirlər

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 28 avqust 2018-ci il tarixli sərəncamı ilə Ağdam Rayon İcra Hakimiyyətinin başçısı təyin olunan Vaqif Həsənov ötən bu qısa müddətdə 18 köçkün şəhərciyinin, kəndlərin sakinləri ilə görüşlər keçirərək onların ehtiyacları ilə maraqlanıb, problemlərinin həlli üçün diqqət və qayğı göstərmişdir. Bundan başqa belə görüşlər digər əmək kollektivlərində də təşkil olunan bundan sonra əhalinin ən çox ehtiyacı olan xidmət sahələrinin fəaliyyəti yaxşılaşmış, elektrik, su və qazın fasiləsiz verilməsinə diqqət artırılmışdır. Rayon əhalisi bu səmimi, işgüzar, obyektiv yanaşmaya müsbət qiymət verir, görülən işlərdən razılıq hissi ilə danışırlar. Amma rayonda görülmüş işlərə yanaşı, həllini gözləyən problemlər də var. Bu məqsədlə RİH-də "məlumat, təklif, təşəbbüs" adlı bank yaradılıb, onlar ümumiləşdirilir, vacib və faydalı olanların tətbiqi üçün qərarlar qəbul olunur. Vətəndaşların qəbulu, ərizə və şikayətlərə baxılması, vaxtında cavab verilməsi işində də qayda-qanun yaradılmış, icra başçısının müavinlərinin, şöbə müdirlərinin məsuliyyətləri artırılmışdır.

Artıq 25 ildir ki, rayon ərazisinin çox böyük hissəsi düşmənlərimiz tərəfindən işğal olunub. Heç şübhə yoxdur ki, bu həm yerli əhalinin, həm də məcburi köçkünlərin yaşayışına, həyat tərzinə ciddi təsir göstərir. Bu təmas xəttində yaşayanlar üçün olduqca çətindir. Təsərrüfatla ürəkli, arxayın məşğul olmaq çətindir. Ermənilər snayper və digər silahlarla dinc əhalini daim atəşə tutur, ziyan vurur.

Ağdam əhalisi zəhmətkeşdir, dolanışığını təmin edəndir, torpaqla işləməyi bacarırlar. Sadəcə onlara düzgün yol göstərilməlidir. Pambığın qiyməti qaldırılıb, məhsulların alıcıları ilə əvvəlcədən müqavilələr bağlanır ki, bu da əkinçinin istehsal etdiyi məhsulunu satmaqda çətinlik yaratmır. Bu, insanların torpağa münasibətini yaxşı mənada dəyişmişdir.

Ağdam RİH-in başçısı Vaqif Həsənov deyir: "Kim ona tapşırılan vəzifənin öhdəsindən layiqincə gəlirsə, kollektivi ondan razıdırsa, təşəbbüskardırsa, obyektivdirsə, öz üzərində çalışırsa, bu gün dünənkindən, sabah bugünkündən yaxşı işləyirsə, rayonun ictimai-siyasi və mədəni həyatında fəal iştirak edirsə, niyə də ondan razı qalmasınlar. Hər kəsə əməyinin nəticəsinə görə qiymət verilməlidir..."

Bu yerin sakinləri gəlişigözəl sözləri xoşlamırlar. Verilən sözlərin yerinə yetirilməsi şərtdir. Həm də axı yalan vədlərin axırı olmur. Keçirilən görüş və qəbullarda edilən müraciətlərə, xahişlərə diqqətlə qulaq asılır, xidmət sahələrinə yönəldilir, götür-qoy edir, köməklik göstərilir, mümkün olmadıqda aidiyyəti üzrə ünvanlanır. Hər şey göz önündə olur, insanlar da razı qalır.

Məsələn, İmanqulubəyli kəndində keçirilən görüş zamanı sakinlər tibb məntəqəsinin olmamasından, uşaq bağçasının təminatsız və çatışmazlıqlarından narazılıq edib, kömək istəmişdilər. Başçı yerində vəziyyətlə tanış olub, köməklik edəcəyinə söz verdi. Artıq bu problem həllini tapıb.

Bu gün çətinliklər olsa da, rayon rəhbərliyi rayonun ərazilərində yeni iş yerlərinin yaradılması üçün xırda pay torpaqlarının birləşdirilməsi, heyvandarlıq birliklərinin yaradılması, evlərdə xalçaçılığın, konserv, gön-dəri, yağ, süd, pendir və s. sexlərinin təşkili istiqamətində əhali ilə izahat işləri aparır. Quzanlı qəsəbəsi ərazisində geniş bir sahəni əhatə edən "Sənaye məhəlləsi"nin salınması üçün layihə və digər təşkilati işlər görülür. "Uşaq şahmat məktəbi", "Yeni uşaq bağçası"nın, "Gənclər evi"nin, "Bilik evi"nin tikintisi də planlaşdırılmışdır. Bütün bunlar həyata keçdiyi təqdirdə yüzlərlə iş yerləri açılacaqdır ki, bu da ailələrin işlə təmin olunmasında mühüm rol oynayacaqdır. Rayon İcra Hakimiyyəti ölkədə və kənar dövlətlərdə yaşayan ağdamlı biznesmenlərə, iş adamlarına, imkanı olanlara da müraciət edərək öz həmvətənlərinə köməklik göstərmələrini xahiş etmişdir. Ümid edirik ki, onlar da bu çağırışa biganə qalmayacaqlar.

Bu gün Ağdamda görülən işlərin, həyata keçirilən tədbirlərin, habelə cənab İlham Əliyevin yeritdiyi xarici və daxili siyasət xətti, xüsusilə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları çərçivəsində həlli istiqamətindəki dönməz mövqeyinin təbliği, izahı və ideoloji təminatı sahəsində Ağdam RİH, YAP-ın Ağdam rayon təşkilatı yanında fəaliyyət göstərən "Mühazirəçilər qrupu" üzvləri və Respublika Bilik Fondunun Ağdam nümayəndəliyi ardıcıl iş aparılır. Ağdamlılar "mərmi altında keçən ömrün" ağır və eyni zamanda şərəfli olduğunu dərindən dərk edir. Cənab Prezidentin ətrafında daha sıx birləşərək onun təyin etdiyi yeni başçıya da hərtərəfli dəstək olurlar.

Ona da inanırıq ki, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə güclü ordumuz torpaqlarımızı mənfur ermənilərdən təmizləyəcək, məcburi köçkünlər öz doğma yurdlarını böyük əzmlə yenidən qurub-yaradacaqlar.

**Hüseyn BAYRAMOV,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü, Bilik Fondunun Ağdam rayon nümayəndəsi.**

# "Uşaq kitabı həftəsi" çərçivəsində gənc rəssamların müsabiqəsi

Ənənəyə sadiq olaraq 1943-cü ildən Rusiya Federasiyasında məktəblilərin yaz tətili günlərində Uşaq Kitabı Həftəsi (Неделя детской книги - "Книжкина неделя - 2019") keçirilir. Kitabxanalarda, kitab mağazalarında, təhsil ocaqlarında uşaq yazarları ilə görüşlər, təqdimatlar, ədəbiyyat müsabiqələri, ustad-dərslər və s. keçirilir.

Tədbirlərin əsas məqsədi kitabı və mütaliəni uşaqlar arasında təbliğ etmək, uşaqların mütaliə marağını artırmaqdır.

Yasamal Rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi sözügedən müsabiqəyə qoşularaq, Yasamal rayonunun ərazisində fəaliyyət göstərən bütün kütləvi kitabxanalarda 2018-ci ilin noyabr-dekabr və 2019-cu ilin yanvar aylarında Uşaq rəsmi müsabiqəsini təşkil edəcəkdir. Müsabiqədə qalib gələn 10 ən yaxşı uşaq rəsmi Rusiyada keçirilən müsabiqəyə təqdim olunacaq.

Ənənəvi olaraq müsabiqəyə həmin ilin yubil-



yarları olan şair və yazıçıların əsərlərinə çəkilmiş rəsmlər təqdim olunur. 2019-cu ildə yubilyarlar sırasına V.Bianki, P.Bajov, İ.Krılov, A.Qaydar, A.Belyayev, E.Voyniç, F.Kuper, N.Ostrovski, K.Doyl daxil edilib.

Azərbaycanın sözügedən müsabiqədə ilk dəfə iştirak etdiyini nəzərə alaraq, müstəsna hal kimi gənc rəssamlara Azərbaycan müəlliflərinin əsərlərindən çəkilmiş şəkilləri müsabiqəyə təqdim edilməsi barədə icazə verilib.

Müsabiqədə 5 yaşdan - 11 yaşa qədər və 12 yaşdan - 16 yaşa qədər uşaqlar iştirak edə bilərlər.

5 - 11 yaşlı qruplar üzrə I, II və III yeri qazanan uşaqlara əlavə olaraq elektron planşetlər, 12 - 16 yaşlı qruplar üzrə I, II və III yeri qazanan uşaqlara isə elektron kitabları oxumaq üçün qurğu hədiyyə olunacaq. Müsabiqənin qaliblərinin təltiflunma mərasimi Moskva Kitab Evində keçiriləcək.

**Əli SADIQOV, "Respublika".**


Tenderə dəvət

F.Köçərli adına Respublika Uşaq Kitabxanası
AÇIQ TENDERƏ DƏVƏT EDİR
Tender 1 lot üzrə keçirilir:
Lot 1 - İnventarın alınması

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri , S.Vurğun küçəsi-88 (Əlaqələndirici şəxs :Güldanə Dərvişova, telefon: 0125970879) ünvanından ala bilərlər.

İştirak haqqı: Lot 1 – 100 manat
F.Köçərli adına Respublika Uşaq kitabxanası
Hesab №/ AZ03CTRE00000000000002178202
VÖEN/İNT: 1400597901
8 saylı DXA
Kodu/Code: 210005
VÖEN/İNT: 1401555071
M/h: AZ41NABZ01360100000000003944
S.W.İ.F.T. CTREAZ22
Büdcə səviyyə kodu: 7, İqtisadi təsnifat: 142340

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;
2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
4. Tender təklif dəyərinin 1 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);
5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;
